www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 sentyabr 2015-ci il Çərşənbə axşamı № 204 (6232) Qiyməti 40 qəpik

**Xəbər**

## 2016-cı ilin büdcəsi açıqlandı; neft 50 dollardan götürüldü

yazısı səh.3-də

**Gündəm**

### "Bizdə elə silahlar var ki..."



Azərbaycan öz tarixində ən iri təlimlərini uğurla başa çatdırdı; bu təlimlər Qarabağ məsələsini uzatmağın region və vasitəçi güclərə vəd etdiyi təhlükəni əyani nümayiş etdirdi; müdafiə naziri Zakir Həsənov düşmənə xəbərdarlıq etdi

yazısı səh.13-də

### Bakıda bəzi ali və orta məktəblərdə dərslərin vaxtı dəyişdirildi

yazısı səh.3-də

*Jirinovski:*

### "Suriyalı qaçqınlar Azərbaycana axışacaq"

yazısı səh.12-də

### YAP XİN-dəki hadisələrə münasibət bildirdi

yazısı səh.5-də

### Paytaxta buraxılmayan rayon maşınları üçün çıxış yolu

yazısı səh.3-də

### Mingəçevir və Ağdam cəbhəçiləri Razi Nurullayevə qoşuldu

yazısı səh.7-də

### Benzinin qiyməti ucuzlaşmayacaq

yazısı səh.6-da

### Dərmanlar bu gündən yeni qiymətlə satılacaq

yazısı səh.10-da

### Aynar Məmmədovun maşını cərimə meydançasına aparıldı

yazısı səh.7-də

### Ermənilərlə azərbaycanlılar arasında kütləvi dava: 1 həmyerlimiz öldü

yazısı səh.14-də

### "Təmiz Binəqədi"nin böyük pullar hesabına tikilən "təpəsi" sökülür

yazısı səh.15-də

### 3 dinin müqəddəs məbədi - Məscid əl-Əqsa

yazısı səh.11-də

## Azərbaycan parlamentində qəzəbli çıxışlar

# AVROPAYA SAVAŞ ELANI - "...ÇIXIRIQ"

Milli Məclisin növbədənkənar sessiyasında Azərbaycan deputatları Avropa Parlamentini topa tutdular; savaş qərarı kimi elan: "Avronest"də fəaliyyəti dayandırırıq; "Biz hakimiyyəti yox, Azərbaycanın Suriyaya, Liviyaya çevrilməməsini dəstəkləyirik"; "Axı sən kimsən, cənab Şults?!"




yazısı səh.9-da

## Ziya Məmmədov "şimal quberniyası"nı itirir

Nazir Qubada söz sahibidirsə, niyə hoteli əlindən alınsın?; Məmmədovlar Bakı Avtovağzal Kompleksini öz pullarına tikiblər və asanlıqla təhvil verməyə də bilərlər, amma ortada Fərhad Əliyev nümunəsi varsa...

yazısı səh.6-da



### Eldar Sabiroğlunu Ramiz Mehdiyevə qarşı danışdıran kim(lər)dir?

yazısı səh.5-də



*Arif Hacılı:*

### "Hakimiyyət yaranmış vəziyyəti çox ciddi müzakirə etməlidir"

yazısı səh.8-də



*Pənah Hüseyn:*

### "Qurban bayramında əfv və azad seçki durumu xilas edə bilər"

yazısı səh.7-də



## Prezident Faiq Sucəddinova fəxri təqaüd verdi

Ölkə başçısı 102 tələbəni də prezident təqaüdü ilə mükafatlandırdı

**Prezident İham Əliyev M.M.Sücəddinova prezidentin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir:**

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Mir Faiq Miri oğlu Sücəddinova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Prezident həmçinin ali məktəblərə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla prezident 2015/2016-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəni Prezident təqaüdü ilə mükafatlandırıb.

## Avropa Birliyi Rusiyaya qarşı sanksiyaların müddətini uzatdı

**Avropa Birliyi Rusiyaya qarşı sanksiyaların gələn ilin martınadək uzadılmasını bəyənib. Musavat.com xarici informasiya qaynağına istinadən xəbər verir ki, bu barədə Avropa Birliyindəki mənbə bildirib. Məlumata görə, qərar Avropa Birliyi Şurasının ümumi işlər üzrə iclasında qəbul edilib.**

Beləliklə, sanksiyaların təsiri altına yenidən Rusiya və Ukraynadan olan, bu ölkənin suverenliyi və ərazi bütövlüyünün pozulmasında günahkar bilinən fiziki və hüquqi şəxslər düşüb.

Yada salaq ki, ABŞ və Avropa Birliyinə üzv-ölkələr Krımın işğalı və Rusiyanın Ukraynanın cənub-şərqinə müdaxiləsinə görə bir sıra rusiyalı məmur və siyasi xadimlərə qarşı sanksiyaları 2014-cü ilin martında qəbul edib. Onların Avropa ölkələri ərazisinə girişi yasaqlanıb, hesabları dondurulub.

## Respublika stadionunun direktoru istefa verdi

**Tofiq Bəhramov adına Respublika stadionunun direktoru Akif İsmayılov vəzifəsindən gedib. Məlumata görə, onun vəzifəsini tərk etməsinə səbəb səhhətindəki problemlər olub.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova publika.az saytına açıqlamasında Akif İsmayılovun öz istəyi ilə vəzifəsindən getdiyini deyib:

"Akif müəllim səhhətində problem olduğunu dedi və istefa ərizəsini nazirliyə təqdim etdi. Heç bir problem olmayıb. Öz istəyi ilə işdən uzaqlaşdırılıb".

Nazirlik rəsmisinin sözlərinə görə, A.İsmayılovun yerinə kimin gətiriləcəyi hələ bilinmir:

"Yaxın günlərdə bu barədə məlumat olan kimi mətbuata açıqlama veriləcək".

Qeyd edək ki, son zamanlar Respublika stadionunun durumu ilə bağlı ciddi və haqlı narazılıqlar vardı.

## "Rusiya Əsədin hakimiyyətdən uzaqlaşdırılması üçün danışıqlar aparır"

**Rusiya artıq bir neçə aydır Suriya lideri Bəşər Əsədin hakimiyyətdən devrilməsi üçün danışıqlar aparır. APA-nın xəbərinə görə, bu barədə "Bloomberg" Rusiya, Səudiyyə Ərəbistanı və ABŞ-dakı diplomatik mənbələrə, habelə Suriyadakı müxalifət təmsilçilərinə istinadən məlumat yayıb.**

Danışıqlara iyun ayından etibarən start verildiyi bildirilir. Mənbələrin məlumatına görə, Rusiya və ABŞ Bəşər Əsədin müvəqqəti hökumət başçısı olaraq qalacağı halda onun hakimiyyətdən uzaqlaşdırılması ssenarisini istisna etmirlər. Yazıda xatırladılır ki, iyunda Rusiya prezidenti Vladimir Putin Moskvada B.Əsədin Yaxın Şərqdəki əsas əleyhdarlarından olan Səudiyyə Ərəbistanı şahzadəsi Məhəmməd bin Nayef bin Abdel Əziz əl Səudu qəbul edib.

Qeyd edək ki, bir müddət öncə Rusiya prezidentinin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov Rusiyanın Suriya ilə bağlı siyasətinin tənqidə məruz qaldığını bildirib. "Lakin heç kim daha aydın alternativ təklif edə bilmir", -deyə o qeyd edib.

# Bakı-Sumqayıt qatarında qiymətlər açıqlandı

**Tarif (qiymət) Şurasının bu gün - sentyabrın 14-də keçirilmiş iclasında "Azərbaycan Dəmir Yolları" QSC-nin müraciətinə baxılıb və Bakı-Sumqayıt-Bakı istiqamətində hərəkət edən elektrik qatarlarında sərnişindaşıma xidmətlərinin tarifləri təsdiq edilib.**

Tarif Şurasından APA-ya verilən məlumata görə, Şuranın qərarı ilə Bakı Dəmir Yolu Vağzalından Sumqayıt Dəmir Yolu Vağzalınadək gediş haqqı 80 qəpik, aralıq stansiyalar üzrə isə şəhərdaxili və şəhərətrafı alternativ nəqliyyat vasitələri ilə sərnişindaşıma tarifləri və stansiyalararası məsafə nəzərə alınmaqla, 20-70 qəpik arasında təsdiq edilib.

Yeni tariflər 2015-ci il 15 sentyabr tarixindən qüvvəyə minir.

Qeyd edək ki, nəqliyyat sıxlığının aradan qaldırılması və tıxacların qarşısının alınması, əhalinin ictimai nəqliyyatdan istifadəsinin sadələşdirilməsi və rahatlığının təmin edilməsi məqsədilə Bakı-Sumqayıt istiqamətində dəmir yolu infrastrukturu yenidən qurulmuş və yeni qatarlar alınıb.

Bakı-Sumqayıt-Bakı istiqamətində hərəkət edən elektrik qatarlarının sərnişindaşıma xidmətlərinin tarifləri

| № | İstiqamətlərin adı | Tariflər (ƏDV ilə, manatla) |
|---|---|---|
| 1. | Bakı-Sumqayıt-Bakı qatarı | |
| 1.1. | Bakı - Sumqayıt | 0,80 |
| 1.2. | Bakı - Biləcəri | 0,20 |
| 1.3. | Bakı - Xırdalan | 0,30 |
| 1.4. | Bakı - Keşlə | 0,20 |
| 1.5. | Bakı - Koroğlu | 0,20 |
| 1.6. | Bakı - Bakıxanov | 0,30 |
| 1.7. | Bakı - Sabunçu | 0,30 |
| 1.8. | Bakı - Zabrat | 0,40 |
| 1.9. | Bakı - Pirşağı | 0,50 |
| 1.10. | Biləcəri - Xırdalan | 0,20 |
| 1.11. | Biləcəri - Sumqayıt | 0,60 |
| 1.12. | Xırdalan - Sumqayıt | 0,40 |
| 1.13. | Keşlə - Koroğlu | 0,20 |
| 1.14. | Keşlə - Bakıxanov | 0,30 |
| 1.15. | Keşlə - Sabunçu | 0,30 |
| 1.16. | Keşlə - Zabrat | 0,40 |
| 1.17. | Keşlə - Pirşağı | 0,50 |
| 1.18. | Keşlə - Sumqayıt | 0,70 |
| 1.19. | Koroğlu - Bakıxanov | 0,20 |
| 1.20. | Koroğlu - Sabunçu | 0,30 |
| 1.21. | Koroğlu - Zabrat | 0,30 |
| 1.22. | Koroğlu - Pirşağı | 0,50 |
| 1.23. | Koroğlu - Sumqayıt | 0,60 |
| 1.24. | Bakıxanov - Sabunçu | 0,20 |
| 1.25. | Bakıxanov - Zabrat | 0,20 |
| 1.26. | Bakıxanov - Pirşağı | 0,40 |
| 1.27. | Bakıxanov - Sumqayıt | 0,60 |
| 1.28. | Sabunçu - Zabrat | 0,20 |
| 1.29. | Sabunçu - Pirşağı | 0,40 |
| 1.30. | Sabunçu - Sumqayıt | 0,50 |
| 1.31. | Zabrat - Pirşağı | 0,30 |
| 1.32. | Zabrat - Sumqayıt | 0,50 |
| 1.33. | Pirşağı - Sumqayıt | 0,40 |

Təsdiq edilmiş tariflər əks istiqamətlər üzrə də eynilik təşkil edir.

MÜSAVAT

## Müsavat zona müşavirələrini davam etdirəcək

**Dünən Müsavat Partiyası Divanının iclası keçirilib. Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahının rəhbəri Gülağa Aslanlı seçki prosesi barədə ətraflı məlumat verib. İclasda Cəlilabad, Masallı, Sabirabad, Şirvan, Xaçmaz şəhərlərində 13 rayon təşkilatının iştirakı ilə keçirilən zona müşavirələri barədə məlumat dinlənilib. Digər rayon təşkilatlarının iştirakı ilə zona müşavirəsinin keçirilməsi barədə müvafiq tapşırıqlar verilib.**

17 və 54 saylı seçki dairələrindən Müsavat Partiyası namizədlərinin irəli sürülməsi haqda qərar qəbul edilib. Müsavat Partiyası səlahiyyətli nümayəndələrinin növbəti siyahısı təsdiq olunub.

Qobustan rayonu Xilmilli kəndi ərazisində Müsavat Partiyası başqanının müavini, Divan üzvü Səxavət Soltanlının xeyrinə imza toplayan səlahiyyətli nümayəndəsi Qədim Soltana qarşı təzyiqlər pislənilib, həmin şəxslərin hüquqi məsuliyyətə cəlb olunması üçün tədbirlərin görülməsi müvafiq strukturlara həvalə edilib.

Avropa Birliyinin Azərbaycanda seçkiöncəsi vəziyyət, demokratiya və insan hüquqlarının kobud surətdə və ardıcıl olaraq pozulması ilə bağlı qəbul etdiyi qətnamə müzakirə edilib. Azərbaycan hökumətinin beynəlxalq aləmdə və ölkəmizdə gedən prosesləri düzgün dəyərləndirmədiyi qeyd edilib. Ölkənin bütün həyatında islahatların həyata keçirilməsinin vacibliyi bir daha vurğulanıb.

İlin əvvəlindən dünya bazarında enerjidaşıyıcılarının qiymətinin aşağı düşməsi ilə əlaqədar ölkədə yanacağın qiymətinin aşağı salınmasını Tarif Şurasında müzakirəsinin tələb edilməsi barədə qərar qəbul edilib.

Sonda cari məsələlər müzakirə edilib.

❑ E.SEYİDAĞA



## Bakıda ağır qəza - maşın iki nəfəri vurdu

**Bakının Yasamal rayonu ərazisində, "Qələbə" dairəsi yaxınlığında ağır yol nəqliyyat hadisəsi baş verib. Azadxeber.az xəbər verir ki, dövlət nömrə nişanı və markası bilinməyən avtomobil yolu keçmək istəyən iki piyadanı vurub. Piyadalardan biri qadın, digəri isə kişi olub.**

Yerdə can verən hər iki piyada Təcili Tibbi Yardım avtomobili ilə 1 saylı Şəhər Kliniki Xəstəxanasına (Semaşko) aparılıb. Xəstəxanadan verilən son məlumata görə, hər iki piyada aldıqları xəsarətdən klinikada keçiniblər.

## Hökumət neftin ucuzlaşması fonunda 3 inkişaf ssenarisi hazırlayıb

**Dünyada cərəyan edən iqtisadi risklərin ehtimal olunan nəticələri, xammal məhsullarının, əsasən də xam neftin (Brent markalı) satış qiymətinin 40-60 ABŞ dolları səviyyəsinə düşəcəyini nəzərə alaraq, 2016-2019-cu illər üçün dövlət və icmal büdcələrin əsas parametrləri və prioritet istiqamətləri üzrə 3 ssenari hazırlanıb.**



Maliyyə Nazirliyindən "APA-Economics"ə verilən məlumata görə, bu barədə Azərbaycanın 2016-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatında bildirilib.

Birinci ssenari optimist (neftin bir bareli 60 ABŞ dolları olduqda), ikinci baza (neftin bir bareli 50 ABŞ dolları olduqda), üçüncü isə pessimistdir (neftin bir bareli 40 ABŞ dolları olduqda).

Növbəti ildə dövlət və icmal büdcələrin gəlirlərinin və xərclərinin azalması fonunda, dövlət sektorunda xərclərin səmərəliliyinin daha da artırılması, sosialyönümlü xərclərin və ölkənin müdafiə qabiliyyəti və təhlükəsizliyi üzrə xərclərin prioritetliyinin təmin edilməsi gözlənilməklə, eyni zamanda kənd təsərrüfatının aparıcı sahələrinin, sənayenin, regionların sosial-iqtisadi inkişafı, dövlətin borc və öhdəliklərinin yerinə yetirilməsi, əhalinin əsas ərzaq məhsulları ilə özünü təmin etməsi və digər dövlət tədbirləri üçün maliyyə imkanlarının yaradılması nəzərdə tutulur.

Daxili əmtəə bazarlarının stimullaşdırılması, sosial müdafiə və sosial təminat tədbirlərinin, müvafiq dövlət proqramlarının ortamüddətli büdcə xərcləri ilə əlaqələndirilməsinin daha da təkmilləşdirilməsi, dövlət əsaslı vəsait qoyuluşu xərcləri hesabına tikintisi başa çatdırılan obyektlərin fəaliyyətə başlamaları ilə bağlı tələb olunan xərclərin ortamüddətli büdcə xərclərində nəzərə alınması təmin ediləcək.

Ortamüddətli dövrdə mərhələlərlə potensial xərclərin ortamüddətli və uzunmüddətli dövrləri əhatə edən proqramlar və son nəticəyə söykənən prinsiplər əsasında proqnozlaşdırılmasına daha da genişləndirilməsi qarşıda duran mühüm vəzifələrdəndir.

## "Türkiyə axını" qaz kəmərinin işə salınması təxirə salınıb

**"Türkiyə axını" qaz kəmərinin işə salınması təxirə salınır. APA-nın RİA "Novosti"yə istinadən verdiyi məlumata görə, bunu Rusiyanın "Qazprom" şirkətinin sədr müavini Aleksandr Medvedyev bildirib.**

O deyib ki, boruların düzülməsi prosesi planlaşdırıldığı kimi başlamadığı üçün son tarix artıq 2016-cı ilin dekabrı olmayacaq.

Xatırladaq ki, Rusiyanın energetika naziri Aleksandr Novak iki gün öncə bəyan edib ki, rəsmi Moskva Türkiyə ilə "Türk axını" qaz kəmərinin yalnız bir xətti üzrə saziş imzalamağa hazırdır. Digər xətlərin tikintisinin perspektivi isə Cənub-Şərqi Avropanın tələbatından asılı olacaq.

## Eşşək arısı zəhəri xərçəng xəstəliyinə çarə ola bilər

**Eşşək arısının zəhəri dərman məqsədilə istifadə olunarsa, xərçəng xəstəliyinə çarə ola bilər. Musavat.com xəbər verir ki, bu barədə məlumat "BiopjysicalJournal"dərgisində yer alıb.**

Alimlər eşşək arısının xərçəngə və insanın immun çatışmazlığı virusuna qarşı ümid ola biləcəyini açıqlayıblar.

Xərçəng xəstəliyinin dərmanlarının sadəcə 25 faizi Braziliyadakı Amazon meşələrində əldə edilir.

Hazırda xərçəng xəstəliyinin müalicəsində ən böyük problem kimyaterapiyadır. Çünki kimyaterapiya xərçəng hüceyrələri ilə yanaşı sağlam hüceyrələri də öldürür.

Lakin alimlər eşşək arısı zəhərinin birbaşa xərçəng hüceyrələrini öldürdüyünü bildirib.

❑ Aygün SƏFƏRLİ

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Bakıya buraxılmayan rayon maşınları üçün çıxış yolu

## Qeydiyyatı dəyişmək çox asandır, amma...

**Xəbər verdiyimiz kimi, sentyabrın 15-dən, yəni bu gündən etibarən rayon qeydiyyatında olan avtomobillərin səhər saat 07:00-dan axşam saat 24:00-a qədər paytaxta girişi qadağan olunacaq. Bura Sumqayıt və Abşeron qeydiyyatında olan avtomobillər də daxildir. Sentyabrın 15-də Bakı-Sumqayıt xətti üzrə hərəkət edəcək yeni qatarlar istifadəyə veriləcək. Sumqayıt sakinlərinə Bakı şəhərinə gəlmək üçün ən təhlükəsiz nəqliyyat vasitəsi olan dəmiryol xəttindən istifadə etmək tövsiyə olunub.**

Bundan başqa, Bakı şəhərinin şimal və cənub girəcəklərində rayon qeydiyyatı olan avtomobillər üçün pulsuz dayanacaqlar yaradılıb. Rayon qeydiyyatında olan avtomobillər pulsuz olaraq həmin dayanacaqlarda dura biləcəklər. Dayanacaqlardan ən yaxın metro stansiyalarına gələn avtobuslar fəaliyyət göstərəcək. İctimai nəqliyyat vasitələri sərnişindaşımasını həyata keçirəcək.

Qeyd edək ki, baş nazirin müavini, Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının sədri Abid Şərifov sentyabrın 15-dən rayon qeydiyyatında olan avtomobillərin səhər saat 7:00-dan axşam saat 24:00-a qədər paytaxta buraxılmayacağını, bu avtomobillərin şəhərin cənub və şimal girişindəki duracaqlarda saxlanılacağını bildirmişdi. Belə ki, rayon qeydiyyatında olan avtomobillər yalnız gecə saat 24:00-dan səhər saat 7:00-a qədər Bakı şəhərinə daxil ola biləcəklər.

Ötən saylarımızdan birində dünya miqyasında bu problemin həll yolları barədə yazmışdıq. Dünyanın heç bir ölkəsində paytaxta qeyri-paytaxt maşınlarının buraxılmaması barədə qadağanın olmadığı ümumi araşdırmalar zamanı üzə çıxdı. Tıxaca qarşı həll yolları arasında heç vaxt bu üsul tətbiq olunmayıb. Əhalinin narazılığı ilə yanaşı, bu məsələyə millət vəkilləri səviyyəsində də narazılıq var.



**Lənkərandan seçilən millət vəkili Hadı Rəcəbli azvision.az-a açıqlamasında bildirib ki, rayon maşınlarının Bakıya buraxılmaması müəyyən problemlərə gətirib çıxara bilər:** "Bununla bağlı dünya təcrübələri mövcuddur. Rayon maşınlarının şəhərə buraxılmaması düzgün yanaşma deyil. Digər formalar tapmaq lazımdır. Məsələn, yük maşınlarının şəhərdə hərəkəti üçün lazımi vaxt və xətlər müəyyən edilməlidir. Biz özümüzdən Amerika kəşf etməməliyik. Belə etsək, çox ciddi bir problem yaratmış olarıq.

Düşünürəm ki, rayon maşınlarının şəhərə girişinə indi qadağa qoymaq lazım deyil. Bunun üçün müəyyən zaman lazımdır. İşlər hissə-hissə görülməlidir. Belə bir qadağa qərarı qəbul edilsə, sonradan öz müsbət nəticəsini verməyəcək. Yenə də gərginliklər yaranacaq. Rayonda yaşayan əhalinin böyük əksəriyyətinin övladları Bakıda təhsil alır və işləyirlər. Bunun üçün belə qadağanın qoyulması məqbul sayıla bilməz".

Amma problem varsa, ondan çıxış yolu da var. Belə ki, rayon qeydiyyatı olan maşınları Bakı qeydiyyatına salmaq da çıxış yollarından biridir. Avtonəqliyyat vasitələrinə dövlət qeydiyyat nişanı nəqliyyat vasitəsinin dövlət qeydiyyatına alınması zamanı verilir. Nəqliyyat vasitəsinin sahibi dövlət qeydiyyatı zamanı verilmiş dövlət qeydiyyatı nişanının rəqəm və hərf kombinasiyasının dəyişdirilməsi üçün müraciət edə bilər.

Dövlət qeydiyyat nişanının verilməsi üçün nişanda əks olunan rəqəmlərin və hərflərin kombinasiyasına müvafiq olaraq "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 18.65.6-cı maddəsi ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu alınır.

**"Yol hərəkəti haqqında" Qanunun 29-ci maddəsinin III bəndində deyilir:** "Azərbaycan Respublikası ərazisində dövlət qeydiyyatına alınmış nəqliyyat vasitəsi özgəninkiləşdirildikdə dövlət qeydiyyatı üzrə daimi uçota alınması zamanı həmin nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı saxlanılır.

Belə nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı yalnız nəqliyyat vasitəsini satan şəxsin istəyi ilə və nəqliyyat vasitəsini alan şəxsin razılığı ilə nəqliyyat vasitəsini satan şəxsin digər nəqliyyat vasitəsinə verilir.

Nəqliyyat vasitəsini satan və alan şəxs nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanını saxlamaq istəmədikdə həmin dövlət qeydiyyat nişanı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təhvil alınır və nəqliyyat vasitəsini alan şəxsin nəqliyyat vasitəsinə digər dövlət qeydiyyat nişanı verilir".

### Maşının qeydiyyatlını dəyişmək cəmi 59 manatdır

Bir yerdə qeydiyyatda olan maşının başqa yerdə qeydiyyatda olan şəxsin adına keçirilməsi məsələsi heç bir əlavə prosedur olmadan həll oluna bilər. Buna elə həmin qanunun 29-cu maddənin 3-cü hissəsi imkan verir. Lakin bəzən yol polisində müxtəlif bəhanələr gətirilərək bu məsələ ilə bağlı süründürməçiliyə yol verilir.

Qanunun 32-ci maddəsinə əsasən, nəqliyyat vasitəsini özgəninkiləşdirmək istəyən şəxs nəqliyyat vasitəsinin müayinədən keçirilməsi üçün DYP-nin qeydiyyat-imtahan məntəqəsinə təqdim etməlidir. Burada DYP əməkdaşları nəqliyyat vasitəsinin qeydiyyat sənədlərini, onun mühərrik, ban və şassi nömrələrini, rəngini informasiya-axtarış bazasının məlumatları əsasında yoxlayır. Daha sonra yoxlamanın nəticəsi barədə müvafiq arayış tərtib edirlər və bundan sonra alqı-satqı proseduru həyata keçirilir.

❑ **Sevinc TELMANQIZI**

# 2016-cı ilin dövlət büdcəsi açıqlandı

## Neft 50 dollardan götürüldü

**Maliyyə Nazirliyi 2016-cı ilin dövlət və icmal büdcələrinin layihələrini açıqlayıb. Dövlət və icmal büdcələrin gəlirlərinin hesablamaları zamanı xam neftin satış qiymətinin 1 bareli üçün 50 ABŞ dolları (2015-ci ildə 90 dollar idi-red.) götürülüb.**

Layihəyə görə, gələn ilin dövlət büdcəsinin gəlirləri 14566 mln. manat *(bunun 6000 mln. manatı Dövlət Neft Fondundan transfertlər təşkil edəcək)* proqnozlaşdırılıb. Gələn ilin dövlət büdcəsinin xərcləri isə 16264 mln. manat proqnozlaşdırılıb. Büdcə kəsirinə gəldikdə, bu, gələn ilin dövlət büdcəsi layihəsində 1698 mln. manat göstərilib. Müqayisə üçün qeyd edək ki, 2015-ci ilin dövlət büdcəsinin gəlirləri 17080 mln. manat, xərcləri 17730 mln. manat, kəsir isə 650 mln. manat olub. Bu isə o deməkdir ki, Azərbaycanın dövlət büdcəsinin gəlirləri 4872 mln. manat, xərcləri




4836 mln. manat az proqnozlaşdırılıb.

Sənədə əsasən, gələn il müdafiə sahəsinə 1837, 8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. 2015-ci ildə həmin xərclər üçün 1778, 5 milyon manat ayrılmışdı.

2016-cı ildə dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 25,2%-i həcmində olmaqla, nominal ifadədə 14 mlrd. 566 mln. manat, dövlət büdcəsinin xərcləri isə ümumi daxili məhsulun 28,2%-ni təşkil etməklə 16,264 mln. manat həcmində proqnozlaşdırılır. (apa)

Sənəddə qeyd olunub ki, dünya bazarlarında neftin qiymətinin kəskin enməsi, müvafiq olaraq dövlət büdcəsinin gəlirlərində neft sektorundan daxilolmaların azalması ilə nəticələnib. Qeyd edilən amillər nəzərə alınmaqla, 2016-cı il dövlət büdcəsinin gəlirləri ÜDM-in 25,2%-i həcmində olmaqla, 14 mlrd. 566 mln. manat proqnozlaşdırılır ki, bu da əvvəlki illə müqayisədə 4,872 mlrd. manat və yaxud 25,1% azdır.

2016-cı il dövlət büdcəsinin xərcləri ÜDM-in 28,2%-i səviyyəsində və yaxud 2015-ci illə müqayisədə 7,1 faiz-bənd azdır. 2016-cı il dövlət büdcəsinin xərcləri 16,264 mlrd. manat proqnozlaşdırılır ki, bu da 2015-ci illə müqayisədə 4836,0 mln. manat və yaxud 22,9% az deməkdir.

Dövlət büdcəsi xərclərinin strukturunun və tərtibi prosesinin təkmilləşdirilməsi və ünvanlılığın daha da artırılması istiqamətində işlərin davamı olaraq 2016-cı il dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatın "Sair xərclər" paraqrafı üzrə nəzərdə tutulmuş vəsaitin məbləği 2015-ci illə müqayisədə 350 mln. manat və yaxud 20,3% azalıb.

2016-cı il dövlət büdcəsinin kəsirinin (defisitinin) maliyyələşdirilməsi üçün 1,698 mlrd. manat vəsait nəzərdə tutulub.

Qeyd edək ki, 2016-cı ilin dövlət büdcəsinin 15-16 milyard manatadək azaldılacağı barədə mötəbər mənbəyə istinadən ilk dəfə "Yeni Müsavat" yazmışdı. O zaman bir sıra ciddi ekspertlər bunun mümkünlüyünü təsdiqləmişdilər. Ötən həftə ölkə prezidenti də neft gəlirlərinin azaldığını vurğulayaraq izafi xərclərin dayandırılmasını istəmişdi.

❑ **Cavid TURAN**



# Bakıda bəzi ali və orta məktəblərdə dərslərin vaxtı dəyişdirilib

## Məqsəd nəqliyyatın sıxlığının qarşısının alınmasıdır

**Yeni tədris ilinin başlanması ilə əlaqədar Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının 23 iyul 2015-ci il tarixli "Bakı şəhərində nəqliyyatın hərəkətinin təkmilləşdirilməsi üzrə əlavə tədbirlər haqqında" qərarına əsasən Bakının mərkəzində yerləşən ali təhsil müəssisələri üçün fərqli iş qrafikləri müəyyənləşdirilib.**

APA-nın məlumatına görə, Azərbaycan Texniki Universitetində bu tədris ilində dərslər öncəki tədris illərində olduğu kimi, saat 8:30-da deyil, saat 9:00-da başlayacaq.

Azərbaycan Dövlət İqtisad Universitetində də iş qrafiki dəyişib. Əgər öncəki tədris illərində bu təhsil müəssisəsində birinci növbə üçün dərslər saat 8:30, ikinci növbə üçün dərslər saat 13:45-də başlayırdısa, bu il birinci və ikinci növbələr üçün dərslər müvafiq olaraq saat 9:00 və saat 14:00-da başlayacaq. Bakı Dövlət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universitetində isə iş qrafikləri dəyişməyib. Bakı Dövlət Universitetində dərslər keçən tədris illərində olduğu kimi, saat 8:30-da, Azərbaycan Memarlıq və İnşaat Universitetində isə saat 9:00-da başlayacaq.

Bakının mərkəzində yerləşən orta məktəblərdə də fərqli iş qrafiki tətbiq olunacaq. Məsələn, "İçərişəhər" metro stansiyası yaxınlığında yerləşən 132 saylı orta məktəbdə tədris artıq saat 8:30-da deyil, saat 8:00-da başlanacaq.

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015



# Bizi kimlər öyrədir, ilahi?

Hüseynbala SƏLİMOV

**Telekanallara nəinki müxalif, hətta müstəqil düşüncəli insanları belə buraxmırlar. Bunu deməklə yəqin ki, elə bir kəşf etmədim. Bu günlərin söhbəti olar. Kanalların birində "müzakirə" gedirdi. Əsəbiləşsəm də dedim ki, qoy, bir bunu dinləyim, görüm, nə deyirlər...**

"Müzakirə"də iştirak edənlərə baxırdım. Hamısını tanıyırdım. Bir-bir onlara baxır və ürəyimdə deyirdim, ki, bəli, bunu tanıyıram, bir vaxt müxalifətdə heç yüzüncü adam da deyildi, indisə bizə ağıl öyrədir...

Beləcə, bircə-bircə bütün "müzakirə" iştirakçılarının "xarakteristika"sını cızırdım ürəyimdə. Və birdən özümə də, bütün millətə də yazığım gəldi. Qəfil beynimdən bir fikir keçdi: bizi kimlərə tapşırmısan, İlahi?..

İnsanların "budanması" əməliyyatı ilə çoxdan tanışam. Müxalifətdə də belə tendensiya vardı. Müxtəlif qruplar çalışırdılar ki, heç kim onların "lider"indən önə keçməsin və yalnız onların "lider"i ən ağıllı, ən savadlı və ən yenilikçi adam kimi görünsün...

Hətta bir fikir, ideya olanda da onu sənin özünə deməyə imkan vermirdilər. Deyirdilər ki, qoy, filankəs bəy desin... Yəni camaatda belə təsəvvür yaransın ki, məhləmizdə bir oğlan var, o da elə filankəs bəydir!..

Bunu həyatda görməmişdən əvvəl filmlərdə də müşahidə etmişdim. Bir filmdə gördüyüm hələ də yadımdan çıxmır.

Hitlerin hakimiyyətə gəlişinin ilk illərini göstərirdilər - sırada ondan da uca adamlar vardı... Bir neçə ildən sonrakı kadrları göstərirdilər - artıq Hitlerdən uca adam yox idi...

Belə halları canlı həyatda görəndə məndə həmişə dəhşətli etiraz doğurdu. Düşünürdüm ki, beləcə, bütün millət "budanır", onun potensialını özündən gizlədirlər...

Amma özümə təsəlli verirdim ki, nə yaxşı biz müxalifətik, bütün Azərbaycan deyilik. Adam təsəlli tapırdı ki, nə yaxşı ki, biz hələ hamı demək deyilik...

Qərəz, qayıdıram mətləb üstünə, bizim "siyasət və fikir ulduzları"na... Həqiqətən insan dəhşətə gəlir! Mən müsəlmanam. Amma digər dini kitabları da oxumağa çalışmışam, xüsusən də "İncil"i... Orada bir yer var. Yazırlar ki, sizdən axırıncılar birinci olacaq...

Təbii ki, mən "İncil"dən sitatı bu kontekstdə heç işlətmək istəməzdim. Amma elə həqiqətən də baxıb görürsən ki, ən axırıncılar birinci olub...

Belə bir vəziyyət iki halda olur. Biri o vaxt olur ki, kütlə hakimiyyətə gəlir və kim daha bərk qışqırırsa, o da önə keçir...

Bir də avtoritar, totalitar idarəçilik zamanı belə hallar baş verir - insanları yaltaqlığa, rejimə sədaqətə görə irəli çəkməyə başlayırlar. Beləcə, axırıncılar, ən geridə qalanlar gəlib birinci olurlar, çünki onlarda heç nə olmur, yalnız bir hissdən savayı: "Mən sizə sübut edəcəm!.."...

Belələrinə təbiət görkəm, zəka vermədiyindən onlar çox acıqlı olurlar, ürəklərində hər şeyə nifrət edirlər. Və beləleri önə keçəndə həqiqətən də elə bir səhralıq başlayır ki, adam onu təsvir belə edə də bilmir - heç kimə imkan vermirlər...

İndi mən də bizim böyük "siyasət təhlilçi"lərinə baxanda beynimdən yalnız bu hisslər keçirdi. Düşünürdüm ki, imkanları olsaydı beləleri düşərgələr, qaz kameraları düzəldərdilər... Həmin kameralarda özlərindən ağılca və boyca uca olanları boğardılar...

Ən dəhşətlisi odur ki, biz bunları tanıyırıq, hansı "yuvanın quşu" olduqlarını bilirik. Amma gənclər və yeniyetmələr onları tanımır. Onlar elə doğrudan da bu adamlara baxanda deyirlər ki, bəli, bunlar bizim "fikir nəhəngləri"mizdir...

Bizim heç olmasa, bircə hüququmuz qalıb - ürəyimizdə onlarla razılaşmamaq və bacarsaq, onların "dürlü fikirlər"ini tirajlamamaq...

Fəqət, dərindən düşünəndə bu da bir təsəllidi. Ona görə təsəllidi ki, onlar bizdən qat-qat güclüdürlər. Bəli, telekanallar onların "fikir"lərini tirajlayır, baxanlar və bu adamları tanımayanlar deyir ki, kişilər həqiqətən də fikir nəhəngləridir....

Bizim gücümüz nəyə çatır? Bir-iki dost-tanışa deyə bilirik ki, əşi, qulaq asma, dedikləri cəfəngiyatdır...

Köməyi olurmu? Düşünmürəm, çünki bu adamlar bizim kimi insanların bir obrazını yaradıblar - uğursuzlar...

Bəli, onlar uğurlu, biz isə uğursuzuq. Onlar ağıllı, bizsə ağılsızlarıq. Nə demək olar? Taledirmi? Görünür ki, belədir...

Birini bu yaxınlarda şəhərdə görmüşdüm. Dedim ki, təbrik edirəm, böyük politoloq olmusan. Əzildi-büzüldü, amma bir söz demədi...

Fəqət, nə faydası? Əsas odur ki, onlar öndədirlər. Onlara da elə bu lazımdır - əsas odur ki, əlləri piroqa çatsın...

**15 sentyabr Bakının erməni-bolşevik işğalından azad edildiyi gündür. 97 il öncə Osmanlı türklərindən təşkil olunmuş Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu böyük şücaət göstərərək, bu tarixi missiyanı, yəni Azərbaycanın düşmənlərdən azad edilməsi prosesini başa çatdırdı.**

# Bu gün Bakının azad olunduğu gündür

## 97 il öncə Qafqaz İslam Ordusu paytaxtımızı düşmənlərdən azad edib; ölkə müxalifəti tədbirlər keçirəcək

Baş verən döyüşlərdə qardaş ölkə 1200-dən çox şəhid verdi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan olunarkən, ölkəmizin böyük hissəsi düşmənlərin əlində idi. Birinci Dünya müharibəsində məğlub olmalarına baxmayaraq, Osmanlı Türkiyəsi Azərbaycanı azad etmək üçün 14 minlik ordu göndərdi. Azərbaycan və Dağıstan türklərinin də daxil olduğu, ümumi sayı 20 mindən çox olan Qafqaz İslam Ordusu qısa müddətdə AXC-nin sərhədlərinin bərpa olunmasında, torpaqlarımızın azad edilməsində xüsusi qəhrəmanlıq göstərdi. 1918-ci ilin noyabr ayına qədər türk ordusu Azərbaycanda qaldı.

Hazırda Bakıda ərazi bütövlüyümüz uğrunda canından keçən türk əsgərlərinin xatirəsinə Türk Şəhidliyi abidəsi ucaldılıb. Azərbaycanın müxtəlif yerlərində də bu tipli abidələr var.

Hər il olduğu kimi, bu il də bu günlə bağlı tədbirlər, Bakıdakı Türk Şəhidliyinə ziyarətlər təşkil olunacaq. Ölkə müxalifətinin geniş tədbirlər planı var.

**Müsavat Partiyasının bu günlə bağlı xüsusi planları var. Belə ki, partiya saat 11:00-da Türk Şəhidliyini ziyarət edəcək. Ardınca isə qərargahda tədbir keçirəcək.**

**Bu barədə Müsavat başqanının müavini Elman Fəttah məlumat verdi:** "15 sentyabr Bakının qurtuluş günü Azərbaycan suverenliyinin və cümhuriyyətçiliyinin, dövlətçiliyinin təməlində yatan hadisələrdən biridir. Bakının işğaldan azad edilməsi Müsavat hökuməti və türk ordusunun əsgərlərinin birgə keçirdiyi uğurlu əməliyyatdır. Çox böyük əhəmiyyəti olan hadisədir. Müsavat Partiyası üçün bu gün tariximiz baxımından ən şərəfli günlərdən biridir. Biz bu dəfə xüsusi şəkildə 15 sentyabrı qeyd etmək istəyirik. Saat 11:00-da Türk Şəhidliyində ziyarətimizə start veriləcək. Daha sonra Qobustanda yerləşən türk əsgərinin məzarını ziyarət edəcəyik. Axşamüstü isə, saat 17:00-da Müsavat qərargahında həmin mövzunun davamı kimi konfrans şəklində tədbir keçirəcəyik. "Bakının qurtuluşu və türk qardaşlığı" mövzusunda konfrans olacaq. Tarixçi alim Nəsiman Yaqublu geniş çıxış edəcək. Həmin hadisələri daha dərindən bilən biri kimi. Digər çıxışlar da olacaq. Siyasi təşkilatlar və ictimai fəallar dəvət olunub. Mətbuatdan xahiş etmişik ki, tədbirin işıqlandırılmasına böyük əhəmiyyət versinlər".




**125-lər Siyasi Klubunun rəhbəri İlhamiyyə Rza seçki kampaniyasının başlaması ilə əlaqədar bu günü sosial şəbəkələrdə geniş şəkildə xatırlayacaqlarını qeyd etdi:** "Bildiyimiz kimi, hazırda seçki kampaniyası başlayıb. İmzatoplama işləri gedir. Üzvlərimizin çoxu bölgələrdədir. Ona görə də tədbir planlaşdırmamışıq. Amma qeyd edim ki, sosial şəbəkələrdə bu günü geniş şəkildə təbliğ edəcəyik. Hər halda, bu günə önəm vermək hər bir vətəndaş kimi, bizim də borcumuzdur. Tariximizdə böyük əhəmiyyəti olan bir gündür. Keçən ilin bu günlərində 15 sentyabrın Bakı günü kimi qeyd olunması ilə bağlı ölkə başçısına müraciət etdik. Hesab etdik ki, belə tarixi günlərin dəyərləndirilməsi, yadda qalması, paytaxtımızın və ümumilikdə ölkəmizin təbliği baxımından da Bakının azad edilməsi gününün təqvimdə Bakı günü (şəhər günü) olaraq qeyd edilməsi faydalı bir addım olardı".

**KXCP sədrinin müavini Xəzər Teyyublu da tədbirlər planlarından danışdı:** "Bu günlə bağlı xüsusi planımız var. Türk Şəhidliyini ziyarət edəcəyik. Hər il olduğu kimi, bu il də KXCP bu günü xatırlayacaq. Bu qəhrəmanlıq salnaməsi tariximiz baxımından olduqca önəmlidir. Cümhuriyyətimizin qurulması üçün önəmi yüksəkdir. Bu tədbiri keçirmək vətəndaş olaraq, mənəvi borcumuzdur".

VHP İcra Aparatının rəhbəri Samir Əsədli saat 12-də Türk Şəhidliyini ziyarət edəcəklərini bildirdi.

❑ Cavanşir ABBASLI

# "Manatın ucuzlaşması əslində..."

## Ekspertlər bildirirlər ki, devalvasiya düşünülmüş şəkildə həyata keçirilə və zərər minimum ola bilər...

**Azərbaycanın ərzaq bazarı xaricdən çox asılı olmasa da, ikinci devalvasiya ciddi bahalaşma yarada bilər. Ekspert Pərviz Heydərov ölkənin ərzaq bazarının devalvasiyaya nə dərəcədə dayanıqlı olması barədə məsələyə münasibət bildirərkən belə deyib. O, məsələ ilə bağlı musavat.com-a bildirib ki, ölkəmiz daxili istehlak bazarında təklif nöqteyi-nəzərdən ərzaq məhsulları sarıdan idxaldan o qədər də asılı vəziyyətdə deyil: "Sadəcə, burada rəqabət qabiliyyətlilik və keyfiyyət məsələsi vardır.**



Bu gün ölkəmiz əslində əksər ərzaq məhsulları üzrə özünü yerli istehsal hesabına təmin edə bilir. Ət və ət məhsullarıdır, yumurtadır, meyvə-tərəvəzdir və digər ən zəruri yeyinti məhsullarıdır, ölkəmiz özünü daxili istehsal hesabına təmin edir. Yalnız taxıl sarıdan ölkəmiz idxal olmasa, keçinə bilməz. Yəni buğdadır, şəkər və çay kimi məhsullardır, idxaldan asılıyıq. Sözün qısası, ölkədə yeyinti məhsulları istehsalı və emalı sahəsində son illər xeyli irəliləyiş oldu.

Lakin təkrar edirik ki, ortada keyfiyyət məsələsi var. Bu da rəqabət qabiliyyətini müəyyən edən ən ümdə məsələ və amildir".

**Ekspertin sözlərinə görə, devalvasiyanın bu baxımdan ona görə əhəmiyyəti vardır ki, manatın ucuzlaşması daxili istehsala məxsus malların dəyərini xarici analoqları ilə müqayisədə nisbətən qənaətbəxş edir:** "Bu, mühüm və vacib məsələdir. Xarici valyutanın bahalaşması idxal məhsullarının bahalaşması ilə nəticələnir ki, bu isə həmin məhsulların yerli istehsala məxsus mallarla rəqabət qabiliyyətliliyinə mənfi zərbə vurur. Odur ki, manatın ucuzlaşması əslində daxili istehsala xeyirdir. Sadəcə, bunu düşünülmüş şəkildə həyata keçirmək lazımdır".

Qeyd edək ki, bir ay əvvəldən ölkənin ərzaq bazarında başlanan bahalaşma meylləri ciddi təhlükədən xəbər verir. Ekspertlər qeyd edirlər ki, dünya bazarında ərzağın ucuzlaşdığı zamanda Azərbaycanda baş verən bahalaşma tezliklə daha ciddi nəticələrin olacağını söyləməyə əsas verir. Neftin ucuzlaşması və təkrar devalvasiya təhlükəsi qarşısında ərzaq məhsullarının kəskin bahalaşacağı ehtimalları az deyil. Manat növbəti dəfə ucuzlaşacağı halda, qiymət bahalaşması qaçılmazdır. Manatın isə yenidən devalvasiya ehtimalları yüksəlməkdədir.

❑ RÖYA

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəisi, ehtiyatda olan polkovnik, sabiq YAP-çı deputat Eldar Sabiroğlu son günlərdə mətbuatdakı sərt çıxışları ilə diqqət çəkir. Əvvəllər ümumi şəkildə hakimiyyət əleyhinə danışsa da, son müsahibələrində o, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevi hədəf alıb.**

# Eldar Sabiroğlunu Ramiz Mehdiyevə qarşı danışdıran kim(lər)di?

## Qabil Hüseynli: "Eldar Sabiroğlunun deputatlığında Prezident Administrasiyasının rəhbərinin rolu olub"

Hakimiyyətin əsas fiqurlarından olan bir şəxs barədə E.Sabiroğlunu sərt danışmağa vadar edən nə səbəb ola bilər? Sabiq deputat hansı çevrəyə yaxındır, yaxud onu kim belə danışdırır?

E.Sabiroğlu 1998-ci ildən başlayaraq gözdən düşmüşdü. Onun Milli Məclisin sabiq sədri Rəsul Quliyevlə əlaqəsinin olduğu deyilirdi. Buna görə E.Sabiroğlu özü R.Quliyevin əleyhinə olan toplantıda arayış verməli olmuşdu. AzTV-də yayımlanan həmin iclasda Eldar Sabiroğlu Rəsul Quliyevlə əlaqələrini cidd-cəhdlə təkzib etməyə çalışırdı. Amma artıq gec idi, o, özünü heç cür təmizə çıxara bilmədi və 2000-ci ildə keçirilən parlament seçkilərində kənarda saxlandı. Bir daha parlamentə buraxılmadı.

Sonralar E.Sabiroğlunun çətir dəyişdirdiyi, sabiq səhiyyə naziri Əli İnsanovun qrupuna yaxınlaşdığı deyildi. Bu manevr də onun köməyinə gəlmədi. 2005-ci ildə Ə.İnsanovun həbsindən sonra E.Sabiroğlu tamamən unuduldu.

Amma bir neçə il sonra E.Sabiroğlu Müdafiə Nazirliyinin mətbuat xidmətinə rəis gətirildi. Bu təyinatdan sonra onun sabiq müdafiə naziri Səfər Əbiyevin daxil olduğu hakimiyyətdaxili qruplaşmaya aid olması barədə söz-söhbətlər dolaşmağa başladı. Bu versiya daha inandırıcı göründü. Belə ki, S.Əbiyevin istefaya göndərilməsindən sonra yeni nazir Zakir Həsənovun dərhal E.Sabiroğlunu vəzifəsindən azad etməsi bir çox mətləblərdən xəbər verdi.

Göründüyü kimi, E.Sabiroğlunun daxil olduğu iddia olunan qrupların hər biri hakimiyyətdaxili "vurulmuş qruplar" hesab olunur. Burada da bir sual yaranır. Hazırda heç bir vəzifəsi olmayan E.Sabiroğlu R.Mehdiyevi sevməyən hansı çevrəyə yaxındır ki, belə arxayın şəkildə danışır?



Eldar Sabiroğlu

Onu da qeyd edək ki, E.Sabiroğlu eyni zamanda YAP Siyasi Şurasının üzvü Siyavuş Novruzovun da ünvanına aşağılayıcı ifadələr işlədir. Bəzi ekspertlər hesab edirlər ki, onun sərt çıxışlarına səbəb qarşıdan gələn parlament seçkilərində yenə də YAP-ın siyahısından kənarda qalacağını öncədən bilməsidir.

**Mövzunu "Yeni Müsavat"a şərh edən politoloq Qabil Hüseynli E.Sabiroğlunun parlamentə deputat seçilməsində Ramiz Mehdiyevin böyük rolu olduğunu bildirdi:** "Eldar Sabiroğlu manevr etməyi bacaran şəxsdir. Gerçəkliyi qiymətləndirməyi bilir. Onun hansı qruplarla əlaqəli olduğunu deyə bilmərəm. Onu bilirəm ki, onun Müdafiə Nazirliyinə gətirilməsində də Ramiz Mehdiyevin müsbət fikri olub. Birdən-birə ona yaxınlıq etmiş, karyerasının formalaşmasında əməyi keçən şəxsə qarşı subyektiv fikirlər səsləndirməsi doğru deyil. Heç bir elmi rütbəyə, elmi ada malik olmayan Eldar Sabiroğlunun akademik səviyyəsinə yüksəlmiş, bütün həyatını elmə, siyasi fəaliyyətə həsr etmiş, dövlətçiliyimizin möhkəmləndirilməsində xidmətləri olan bir şəxsə qarşı çevrilməsi çox ciddi yanlışlıqdır. Görünür, o, yeni karyera eşqinə düşüb. Özü də fikirlərinin heç birində zərrə qədər həqiqət payı yoxdur. Tənqidi səsləndirəndə də cəmiyyətə verə biləcək həqiqətlər olmalıdır. Bunun fikirləri isə sırf şəxsidir. Şəxsi inciklikləndən qaynaqlanan fikirlərdir. Zənnimcə, bu fikirlər obyektivliyə söykənmir. Bu şəxs qarşıdakıları intriqaya çəkir. Ramiz Mehdiyevin adını çəkmək istəmirəm. Bu məsələdə heç Siyavuş Novruzov da onun üstünə şığımaz. Çünki uzun müddət bir yerdə çalışıblar. Siyavuş Novruzov da onunla bağlı başqa həqiqətləri söyləyə bilər. Bu o demək deyil ki, belə həqiqətlər yoxdur. Eldar Sabiroğlunun çıxışlarını yersiz hesab edirəm. Qərbi azərbaycanlı kimi hesab edirəm ki, onun mövqeyi qərbi azərbaycanlıların mövqelərinə uyğun gəlmir".

**Politoloq E.Sabiroğlunu danışdıran qrup və ya şəxslər barədə sualımıza belə cavab verdi:** "Eldar Sabiroğlu təbiətcə mövcud vəziyyəti dəyərləndirən şəxsdir. Buna uyğun da sözlər deyir. Açığı, indi onu kimin, yaxud kimlərin danışdırması barədə suala cavab verməyə çətinlik çəkirəm. Özünün də danışdığını deyə bilmərəm. Çünki onun söylədikləri o qədər qeyri-ciddi, gülməlidir ki, söylədiyinin haradan qaynaqlandığını deməyə çətinlik çəkirəm".

**Q.Hüseynli hakimiyyətin E.Sabiroğluna göstərdiyi etimada da toxundu:** "Bu, hakimiyyətin öz mövqeyidir. Bu adam israrçı şəxsdir. Qarşısına qoyduğu məqsədə nail olmaq üçün xidmətlərini şişirdə-şişirdə müəyyən dairələrdən etimad qazana bilib. Burada ona müsbət yanaşma metodu da öz rolunu oynayıb".

**Müsahibimiz E.Sabiroğlunun sərt çıxışlarının gələcəkdəki nəticələri barədə də danışdı:** "Düşünürəm ki, bir nəticəsi olmayacaq. Tənqid olunan tərəf belə şeylərə baş qoşmayacaq. Qarşıdan gələn seçkilərdə ona etimad göstəriləcək, ya yox, bunu deyə bilmərəm. YAP-ın səlahiyyətində olan məsələdir. Deputatlıq məsələsi YAP rəhbərliyi səviyyəsində həll olunur. Partiyanın sədri cənab prezidentdir".

❑ **Cavanşir ABBASLI**

# YAP XİN-dəki hadisələrə münasibət bildirdi

**Hakim Yeni Azərbaycan Partiyası (YAP) Xarici İşlər Nazirliyi sistemində baş verən proseslərə, o cümlədən Azərbaycanın müxtəlif ölkələrdəki səfirliklərində işləyən bir neçə diplomatın xaricdə sığınacaq almasına münasibət bildirib.**

YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov "Report"a açıqlamasında deyib ki, hər bir insan, xüsusilə də xaricdə fəaliyyət göstərən diplomatlar millətinə, dövlətinə sadiq olmalıdır: "Amma indi valideyn uşağına cavabdehlik daşıya bilmir, Xarici İşlər Nazirliyi hər bir işçisinin əməlinə görə necə cavabdehlik daşıya bilər?"




**S.Novruzov qeyd edib ki, dövlət strukturlarında işləyən hansısa şəxsin əməlinə görə rəhbərlik məsuliyyət daşımır:** "Bəzən görürsən ki, bunların da içindən dürüst olmayan adamlar çıxır. Elə bir aparat yoxdur ki, insanları ondan keçirəsən, qanında, canında olan xainliyi əvvəldən müəyyən edəsən. Bu baxımdan belə hallar bütün strukturlarda ola bilər. Belə məsələlərdə rəhbər şəxsin məsuliyyət daşıdığını demək düzgün olmaz".

**YAP icra katibinin müavini vurğulayıb ki, bəzi qərəzli şəxslər, xüsusilə də bir neçə partiyanın sədri belə məsələləri şişirdirlər:** "Amma həmin partiyalarda, təşkilatlarda da yolundan çıxan insanlar olur. Həmin şəxslərə görə partiya sədrləri məsuliyyət daşımadığı kimi, dövlət qurumlarının rəhbərləri də hər bir işçiyə görə məsuliyyət daşıya bilməzlər".

# Qərblə müharibə... bəs Qarabağı kimdən istəyəcəyik?



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Azərbaycanda Avropaya qarşı yeni, eyni zamanda təhlükəli söz savaşı başlanıb, Qərbə cəbhə açılıb. Nəticəsinin nə olacağından asılı olmayaraq, bir şey dəqiqdir ki, bu savaş Azərbaycana qətiyyən lazım deyil.**

Ən əvvəl ona görə ki, qüvvələr nisbəti, potensiallar fərqlidir. Lap dəqiqi, Azərbaycanın ziyanınadı. Belə soyuq müharibələrdən ölkəmizin qalib ayrılması mümkünsüzdür. Ayrı səbəblər də var.

Məsələ ondadır ki, bölgədə, Azərbaycan, Dağlıq Qarabağ məsələsi ətrafında vəziyyət xeyli qəlizləşib, tündləşib, qeyri-müəyyən hala gəlib. Bir yandan da qardaş Türkiyənin - bizim əsas təbii müttəfiqimizin başı xaricdən yaradılan süni problemlərlə özünə qatılıb. Proseslər isə çox sürətlə cərəyan etməkdədir.

Belə bir situasiyada məntiq pıçıldayır ki, Azərbaycan olan-qalan dost-müttəfiqlərinin qədrini bilsin, imkan düşdükcə müttəfiqlərinin sayını artırsın, bu da mümkün olmasa, özünə əlavə düşmən qazandırmasın - o ki ola Avropa Birliyi qismində 28 ölkəni özündə birləşdirən nüfuzlu bir qurumla körpüləri yandırmağa girişsin.

Yada salaq ki, Bakı bir qayda olaraq Qarabağ məsələsində Qərbdən, Avropa Birliyindən ədalətli mövqe tələb edir. İnsafən, elə Avropa Parlamentinin özü Ermənistanı işğalçı kimi tanıyan, ondan Azərbaycan torpaqlarını boşaltmağı tələb edən ayrıca qətnamə qəbul edib. O zaman həmin sənədi Azərbaycan hakimiyyəti və onun ətrafındakı peyk qüvvələr olduqca ədalətli bir sənəd kimi alqışlamışdılar.

Düz də eləmişdilər. Zira, o sənədin hüquqi qüvvəsi olmasa da, Azərbaycanın haqlı olduğunu və işğala məruz qaldığını bir daha təsdiqləyir, dünyaya bəyan edir, 28 üzv dövlətdə, Avropa qitəsində ölkəmizin haqlı mövqeyi ilə bağlı ictimai rəy formalaşdırır. Yəni sənəd birmənalı olaraq bizim xeyrimizədir və nə vaxtsa müqəddəs savaşa başlasaq, digər mühüm sənəd-qətnamələr kimi, o da mütləq karımıza gələcək.

İndi nə oldu bəs? Qarabağ məsələsində obyektivlik göstərən bir qurum dönüb düşmənəmi çevrildi? Belə şey mümkünmü? Ən ümdəsi, Avropaya qarşı de-marşdan Azərbaycan, Qarabağ uduşlu çıxa bilərmi? Düşünmürük.

Bu işdən fayda götürəcək tək qüvvə, tərəf varsa, əlbəttə ki, qonşu Rusiyadır. Çünki Azərbaycanı heç bir şeysiz, əziyyətsiz-güzəştsiz, rahatca qazana bilər. Bəs bizə Rusiyaya yaxınlaşmaq necə, lazımdımı? Kreml Qarabağı bizə verərmi o halda? 25 ildir biz Rusiyadan müstəqilik, bu müddətdə Moskva Qarabağı ermənidən alıb bizə verməyibsə, onun yanında öz xoşumuzla, könüllü qərar tutsaq buna gedəcəkmi?

Sadəlövh olmayaq - əlbəttə ki, yox! İş də ondadır ki, Qərbə qarşı bütün bu mənasız və lüzumsuz qovğanın altını ən çox Dağlıq Qarabağ çəkəcək. Daha bir səbəbə görə: düşmən ermənilər də fürsəti qaçırmayacaq və dərhal ondan ölkəmizin beynəlxalq imicini bir az da korlamaq üçün faydalanmağa çalışacaqlar. Azərbaycanın insan haqlarının pozulduğu korlanmış imici isə ermənilərə separatçı rejimin "müstəqlliyi"nə, ərazilərimizin işğalına haqq qazandırmaq üçün gərəkdir.

***

Söz yox ki, özü işğalçı olan, postsovet ölkələrinə də Rusiya imperiyasının tərkib hissəsi kimi baxan Moskva Qarabağı bizə elə-belə qaytarmaz - o da əgər qaytarsa. Yenə ümid Qərbə, Avropaya qalır. Ancaq əgər Qərblə də müharibə vəziyyətindəyiksə, o zaman Qarabağı kimdən istəyəcəyik? Avropa, demokratik dünya arxamızdan çəkilsə, necə olacaq?

Son iki sualın cavabını bilmək üçün Bzejinski olmağa lüzum yox yəqin ki...

**P.S.** *Deyirik, görəsən, torpaqlarımızın işğalına məsul olan Rusiyaya savaş açmaq o yana dursun, ona heç olmasa, "gözün üstdə qaşın var" tipli irad tuta bilərikmi?*



# Diplomatlar komandanı niyə tərk edir?

Azər RƏŞİDOĞLU

**Azərbaycan diplomatlarının Qərb ölkələrindən siyasi sığınacaq istəməsi tendensiyası artmaqdadır. Azərbaycan XİN-in sabiq əməkdaşı Nahid Cəfərov da Hollandiyada siyasi sığınacaq istəyib.**

Buna səbəb isə diplomatlara Arif Məmmədova yaxın olmaları ilə bağlı təzyiqlərin göstərilməsidir. A.Məmmədov məmur özbaşınalığını tənqid etdiyinə görə dövlət əleyhinə fəaliyyətdə ittiham olunmuşdu və vəzifəsindən getmək məcburiyyətində qalmışdı.

Hakim komandanı diplomatların tərk etməsi ciddi qalmaqaldan xəbər verir. Qərb strukturları ilə on illər boyunca sıx əlaqəsi olan bir diplomat təmsil etdiyi siyasi hakimiyyətə "əlcək atırsa", deməli, ya ona geniş ictimaiyyətin bilmədiyi məlumatlar sızdırılıb, ya da beynəlxalq miqyasda hakim elita üçün heç də xoş sonluq vəd etməyən ssenari işə düşüb.

Vəziyyətin mürəkkəbliyi ondan ibarətdir ki, "diplomat qiyamları" parlament seçkilərinə az vaxt qalmış baş verir. Hakimiyyətə siyasi məhbuslarla bağlı təzyiqlər artmaqdadır. Bəzi Avropa ölkələri tərəfindən seçkiləri müşahidədən imtina etmək çağırışları səslənir. Əsəblər isə dözmür. Nə hərbi ritorika, nə də ki vətənpərvər çağırışlar problemi həll etməyə yetərli deyil. Azərbaycan kiçik ölkədir. Təhlükəsizlik məsələlərində isə problemlər kifayət qədər çoxdur. Son günlər baş verənlər ölkə ətrafında halqanın daraldığını deməyə əsas verir. Bu ölkədə sabitliyi göyə sovurmaq supergüclər üçün elə də çətin deyil.

Bir sıra yeni qiyamçı diplomatlar barədə də siqnallar gəlir. Sanki Azərbaycanda "xaricdən gələcək inqilab" effekti yaşanır. Proseslərin təhlili göstərir ki, baş verənlər xarici işlər naziri Elmar Məmmədyarovun hədəf seçilməsini göstərir. Qərbyönümlü baş diplomatın hədəf seçilməsi yalnız hakimiyyətdaxili "razborkaya" bənzəmir, burada Rusiya və Qərbin maraqlarının toqquşması da açıq-aydın sezilir.

İlk baxışdan görünən odur ki, kimlərsə siyasi istebleşmenti qarşılıqlı savaşlara sürükləməyi, ölkə siyasi elitasını parlament seçkilərinə qədər komandanı seytnota salmağı planlaşdırıb.

Hakim elitanın parçalanması nədən xəbər verir? Parlament seçkiləri ərəfəsində hakimiyyətin Rusiyameylli zümrəsi Avroatlantik məkanla inteqrasiya arzusunda olanları hədəfə alır. Kənardan görünən budur ki, ilk növbədə, XİN başçısını kənarlaşdırmaq, onun yerinə Kremli sevən birisini gətirmək planı mövcuddur. Bu fonda Prezident Administrasiyasının şöbə müdiri Novruz Məmmədovun antiqərb bəyanatları yada düşür.

Baxmayaraq ki, konsul və səfirlərin təyin olunması XİN rəhbərinin səlahiyyətinə daxil deyil, istənilən halda baş verənlər E.Məmmədyarovun karyerasını bitirə bilər. Əlbəttə ki, E.Məmmədyarov vaxtilə bu posta əyləşən Həsən Həsənov və yaxud Tofiq Zülfüqarov qədər peşəkar deyil, lakin ölkənin Rusiyaya reveranslarının qarşısının müəyyən mənada alınmasında rolu da az deyil. E. Məmmədyarov N. Məmmədov və Araz Xələfovdan fərqli olaraq, Avroatlantik məkana inteqrasiyanın gətirə biləcəyi dividentləri hesablaya bilir. Bu isə hazırkı situasiyada çoxlarının maraqlarına cavab vermir...

# Ziya Məmmədov "şimal quberniyası"nı itirir

Nazir Qubada söz sahibidirsə, niyə hoteli əlindən alınsın?; Məmmədovlar Bakı Avtovağzal Kompleksini öz pullarına tikiblər və asanlıqla təhvil verməyə də bilərlər, amma ortada Fərhad Əliyev nümunəsi varsa...

**Nəqliyyat naziri Ziya Məmmədov nəzarətində olan sahələrə əl qoyulması barədə xəbərlərə reaksiya vermir. Ötən həftəsonu Bakı-Sumqayıt elektrik qatarının istifadəyə verilməsi ilə bağlı tədbir maraqla gözlənilirdi. Çünki nəqliyyat naziri uzunmüddətli aradan sonra yenidən prezidentlə birgə efirdə görünməli və bununla da "vurulması" barədə xəbərləri nöqtələməli idi. Amma nazir bu tədbirdə də görünmədi. Prezidenti yalnız "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbəri Cavid Qurbanov müşayiət etdi.**

Məlumata görə, nazir mərasimə, ümumiyyətlə, dəvət olunmayıbmış. Bu isə təbii ki, C.Qurbanovu aşan bir məsələdir və onun özfəaliyyəti hesab oluna bilməz.

Nəqliyyat nazirinin tədbirdə görünməməsi onun başı üzərində təhlükənin olduğunu göstərir. Üstəlik, nazirin siyasi hakimiyyətin nəzərindən düşməsi iddiası ilə yanaşı, dəmir yollarının da Z. Məmmədovun nəzarətindən çıxarılması ilə bağlı yayılan xəbərləri təsdiqləyir.

Qeyd edək ki, son bir ayda Z. Məmmədov xeyli maddi itkilərə məruz qalıb. Taksilərə lisenziya verilməsi Nəqliyyat Nazirliyindən alınıb *(qərar gələn ildən qüvvəyə minəcək və bu sahə «ASAN xidmət»ə həvalə olunacaq)*, nazirin yaxın ətrafına məxsus "Transqeyt" MMC-nin marşrut avtobusları xətdən çıxarılıb.

Bir neçə gün əvvəl nazir və oğluna məxsus "Rixos Quba" hotelinin də onun əlindən alındığı haqda məlumat yayılıb.

"Rixos Quba Azerbaycan" hotelinin açılışı 2013-cü ildə olub. Açılışda nazir oğlu Anar Məmmədov da iştirak edib. Qudyalçayın sahilində inşa olunan bu hotel kompleksi yeddimərtəbəli əsas binadan, 16 villadan, üç restoran və bir gecə klubdan, əyləncə parkından, qolf sahəsindən və digər müasir xidmət obyektlərindən




ibarət olmaqla, 210 hektar ərazini əhatə edir. Hotelin bugünlərdə başqa mülkiyyətçiyə keçdiyi bildirilir. Amma kimliyi bilinmir. Məmmədovlar "Rixos Quba"nın onlardan alınması xəbərini təkzib etməyiblər. Yada salaq ki, Quba Z. Məmmədovun kurasiyasındadır. Qubadakı hotelin əlindən alınması isə o anlama gəlir ki, tezliklə bu sorumluluq da ondan alınacaq və ya bəlkə də artıq alınıb. Məntiqlə nazir Qubada kuratordursa, niyə hotel əllərindən alınsın?

Yaxın vaxtlarda sərnişindaşımanın da nazirin nəzarətindən çıxarılacağı söylənilir. Məlumatda deyilir ki, mümkündür ki, sərnişindaşıma Z. Məmmədovun nəzarətindən çıxarılandan sonra Məmmədovlar Bakı Beynəlxalq Avtovağzalına idarəçiliyi də itirməli olacaq. Bu istiqamətdə mediada xəbərlər yayılsa da, nazirin deputat qardaşı Elton Məmmədovun kurasiya etdiyi avtovağzalı onlardan almaq elə də asan olmayacaq. Çünki Bakı Beynəlxalq Avtovağzalının nəqliyyat naziri Ziya Məmmədovun və onun yaxınlarının şəxsi mülkiyyəti olduğu hələ bir neçə il əvvəl rəsmən təsdiqlənib. AzadlıqRadiosunun bir neçə il əvvəl apardığı araşdırma nəticəsində üzə çıxmışdı ki, bu nəhəng obyekti nazirin deputat qardaşının Vircin adalarında təsis etdiyi offşor şirkət idarə edir. Belə ki, obyektin tikintisini nazir oğlunun başçılıq etdiyi o vaxt "ZQAN Holdinq" *(indi "Garant-Holdinq")* adlanan şirkət həyata keçirib, tikinti işləri üçün dövlət büdcəsindən maliyyə ayrılmayıb. Maliyyə və Nəqliyyat nazirlikləri də rəsmən təsdiqləyib ki, Bakı Beynəlxalq Avtovağzal Kompleksinin inşasına dövlətin vəsaiti xərclənməyib. Deputat E. Məmmədov həmin şirkətin təsisçisi olduğunu təsdiqləyib: **"Mən deputat kimi kommersiya fəaliyyəti ilə məşğul ola bilmərəm. Amma mənim hansısa bir şirkət təsis etməyimdə heç bir problem yoxdur".** E. Məmmədov şirkətdə ondan başqa da təsisçilərin olduğunu deyib, ancaq kommersiya sirrini əsas gətirərək adları açıqlamayıb. Həmçinin avtovağzalın tikintisi üçün maliyyə vəsaitinin hansı qaynaqlardan əldə edildiyini deməyib. Belə aydın olur ki, avtovağzal kompleksi ata, oğul və əminin müştərək işidir. Yeni Bakı Beynəlxalq Avtovağzal Kompleksini tikən şirkət Anar Məmmədova məxsusdur, kompleksi idarə edən şirkətin isə ("Bakı XXI Əsr") təsisçisi əmisi deputat Elton Məmmədovdur. Nəqliyyat naziri isə bu beynəlxalq avtovağzala lisenziya verib...

Hüquqi baxımdan avtovağzalın alınması çətin olsa da, Məmmədovlar istehkam qurum sahib olduqları obyekti qoruyan deyillər. Sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin və onun biznesmen qardaşı Rafiq Əliyevin həbsindən sonra onlara məxsus əmlakların necə əllərindən alındığını xatırlatmaq kifayətdir. Gözlənilir ki, Məmmədovlar dirəniş göstərməyin necə təhlükəli olduğunu anlayırlar və "təhvil-təslim"də əlavə səs-küy yaratmaq istəmirlər.

❑ **"Yeni Müsavat"**

# Benzinin qiyməti ucuzlaşmayacaq

**"Azərbaycan bazarında avtomobil benzininin qiyməti neftin 60-62 dollar/barel qiyməti əsasında hesablanıb. Azərbaycanda istehsal olunan Ai-92 markalı benzinin qiymətinə dünya bazarındakı neftin qiymətinin təsiri yoxdur".**

"Report"un verdiyi məlumata görə, bunu jurnalistlərə Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev bildirib: "Bunlar bir-biri ilə bağlı deyil. Bu markalı benzinin qiyməti Tarif Şurası tərəfindən müəyyənləşdirilir. Bu qiymətlərin də dünya bazarında neftin qiymətinin düşməsindən heç bir asılılığı yoxdur".

**SOCAR rəhbəri qeyd edib ki, qiyməti bazar tərəfindən müəyyənləşən və Azərbaycana xaricdən gətirilən Ai-95 və Ai-98 markalı benzin növlərinin isə qiymətində fərq olur. Lakin bu benzinə olan cari tələbat çox azdır - 6 ay əvvəl idxal olunan benzin hələ tam satılmayıb.**

"Əgər hazırda xaricdən gətirilən Ai-95 markalı benzinin özümüz istehsal edəndə ildə 150 min ton benzin satırdıqsa, bu markalı benzin xaricdən gətirilməyə başlayanda əhali Ai-92 markalı benzin istifadə etməyə başlayıb. Artıq Ai-95 markalı benzinə tələbat ildə 25 min ton olub və bu həcm də tam satılmayıb".



**SOCAR prezidenti dünya bazarında neftin qiymətinin düşməsinin yalnız Ai-95 və Ai-98 markalı benzinə təsiri ola biləcəyini qeyd edib.** "Qiymətlər bazar tərəfindən müəyyənləşdiyindən, qiymət getdikcə azalmalıdır. Bura açıq bazardır, rəqabət var. Rəqabətə görə qiymətlər aşağı düşə bilər. Amma neftin qiyməti qalxdıqda bu markalı benzinin də qiyməti artacaq. Ai-92 benzini isə stabildir və Tarif Şurasının qərarı ilə qiyməti təsdiq olunub. Bu benzinin qiymətində dəyişiklik gözlənilmir".

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015



Pənah Hüseyn

# "Qurban bayramında əfv və azad seçki durumu xilas edə bilər"

## Pənah Hüseyndən Avropa ilə münasibətlərin normallaşdırılması üçün yol xəritəsi

**1 noyabr parlament seçkisinə çox az zaman qalmış Qərbin Azərbaycan hakimiyyəti ilə münasibətləri kəskinləşdirməsi ölkənin strateji maraqlarına ciddi təhlükə yaradıb. Azərbaycanın demokratikləşməsini istəyən kəsimlər Avropa Parlamentinin Azərbaycanla bağlı son qətnaməsini, ATƏT-in müşahidəçilərinin sayı ilə bağlı rəsmi Bakı ilə aralarında yaranan mübahisəyə görə seçkini monitorinqdən imtina etməsini yorumlayarkən bu fikri təkrarlayır.**

Qərb-Azərbaycan münasibətləri 8 partiyanı birləşdirən "Azadlıq-2015" Seçki Blokunda da müzakirə olunub. Blokda təmsil olunan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında hakimiyyət üçün yol xəritəsi çəkib. AXP sədri iddia edir ki, son dərəcə gərginləşən Azərbaycan-Qərb münasibətlərini normallaşdırmağın sadə düsturu var: "Avropa İttifaqı Parlamentinin Azərbaycanda vəziyyət haqqında qəbul etdiyi sənəd və ATƏT-in Milli Məclis seçkilərini müşahidədən imtinası ölkə müxalifətinin əvvəlcədən xəbərdar etdiyi tendensiyanın - Azərbaycanın nüfuzlu dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən təcrid edilməsi prosesinin yeni təhlükəli mərhələyə daxil olmasını göstərir. "Azadlıq-2015"ə daxil olan siyasi partiyaların üzvləri olaraq biz bu qərarları qəbul edən şəxslərin, tərəflərin hansı məqsədlər güdməsini bir qırağa qoyuruq. Məsələ burasındadır ki, bu vəziyyətin yaranmasında başlıca səbəb Azərbaycan hakimiyyətinin qüsurlu antidemokratik daxili və yanlış xarici siyasətidir. İllərdir aparılan xarici siyasət nəticəsində, faktiki olaraq, ölkənin milli təhlükəsizliyinin, o cümlədən Qarabağ probleminin həlli, ölkənin ərazi bütövlüyünün təmin edilməsi üzrə istiqamət darmadağın edilib. Bu situasiyadan Azərbaycanın düşmənləri, eləcə də Azərbaycana dost olmayan qüvvələr gen-bol istifadə edir. Bu durumda başlıca məsuliyyət Azərbaycan iqtidarının üzərinə düşür. Çünki biz dəfələrlə bu haqda hakimiyyətə xəbərdarlıqlar etmişik, bu yanlış siyasətin dəyişdirilməsinin vacibliyi ilə bağlı çıxışlar etmişik. Ölkədə köklü demokratik dəyişiklikər və islahatlar bir tərəfə qalsın, siyasi məhbuslar problemini həll etmək əvəzinə onun daha da ağırlaşdırılması, söz və ifadə, sərbəst toplaşma azadlıqlarının sistemli olaraq daraldılması, seçki islahatının hətta müzakirəsindən imtina edilməsi, ən son olaraq Milli Məclisə seçkilərdə ATƏT- in müşahidə missiyasını dəvət edib, daha sonra onun say tərkibinin məhdudlaşdırılması kimi addımları dövlətin maraq və mənafeləri baxımından dəyərləndirmək mümkün deyildir. Nəticələr milli təhlükəsizliyimiz üçün ciddi təhdiddir".

**Pənah Hüseyn bildirir ki, "Azadlıq-2015"ə daxil olan siyasi partiyalar Qərbdə kifayət qədər anti-Azərbaycan qüvvələrin mövcudluğunu da nəzərdən qaçırmır. Ancaq bütün bunlar Azərbaycan hakimiyyətinin ölkə içərisində qanunun aliliyini, insan hüquq və azadlıqlarını təmin etmək, eləcə də xarici siyasəti Azərbaycanın milli maraqlarına uyğunlaşdırmaq üçün ciddi addımlar atmasına maneə sayıla bilməz:** "Ortada məkrli planlar varsa, Azərbaycan demokratik addımlar ataraq bu planları puça çıxarmalıdır. Ölkədə sosial gərginliyin artmasına, bunun nəticəsində qarşıdurma və xaos yaradılmasına imkan verməmək üçün bu son dərəcə vacibdir. Anti-Qərb, anti-Avropa isteriyası çıxış yolu olmayıb və bu, Azərbaycanın strateji maraqlarına ziyan vurur. "Azadlıq- 2015" hesab edir ki, yaranmış vəziyyətdə təxirəsalınmadan aşağıdakı istiqamətlərdə qərarlar qəbul etməlidir. Birincisi, Qurban bayramı münasibətilə geniş amnistiya verilməli, bütün siyasi məhbuslar əfv fərmanı ilə həbsdən azad edilməlidir. İkincisi, baş verən hadisələr fonunda Milli Məclisə seçkilərin aktuallığının və əhəmiyyətinin kəskin şəkildə artmasını nəzərə alaraq seçkilərin azad və ədalətli keçirilməsi üçün əlavə tədbirlər planı müəyyən edilməli və reallaşdırılmalıdır. Bura mövcud qanunvericilik çərçivəsində qalmaqla da seçki komissiyalarının tərkibinin dəyişdirilməsi, seçkilərdə iştirak edən siyasi qüvvələr üçün televiziyalarda daha geniş debat mühitinin yaradılması, effektiv müşahidənin təşkili, seçkilərlə bağlı siyasi partiyalarla dialoq və məsləhətləşmələrin aparılması və s. məsələlərin daxil olması mümkündür. Bu addımlarla Azərbaycan həm daxili, həm xarici siyasətdə böyük irəliləyiş əldə etmiş olar. Avropa Parlamenti və ATƏT-in qərarları nəticəsində yaranmış situasiyanın 1 noyabr seçkilərinin azad və ədalətli olmasına, bu seçkilər nəticəsində yaranacaq parlamentin nüfuzuna və beynəlxalq legitimliyinə xələl gətirə biləcəyini nəzərə alaraq təklif edirik ki, rəsmi Bakı ATƏT- in təqdim etdiyi çərçivədə və sayda müşahidəçilər göndərilməsi ilə razılaşsın, beynəlxalq missiyanın önəmini gözardı etməsin. Siyasi partiyalar vəziyyəti öyrənmək və sonrakı addımları müəyyən etmək üçün Avropa Parlamenti və ATƏT-in səlahiyyətli şəxsləri ilə təmaslar qurmağa səy göstərməyə hazırdırlar".

❑ **Aygün MURADXANLI**



# Mingəçevir və Ağdam cəbhəçiləri Razi Nurullayevə qoşuldu

**AXCP Ağdam şöbəsinin ümumi yığıncağı keçirilib. Musavat.com cebhe.info-ya istinadən xəbər verir ki, yığıncaqda AXCP-də cərəyan edən son proseslər müzakirə edilib. Sonra təşkilati məsələlərə baxılıb və AXCP Ağdam şöbəsi yenidən bərpa olunub.**

AXCP Etimad Qurultayı TK-nın üzvü Səbuhi Əliyev konfrans iştirakçılarına deyib ki, Razi Nurullayevin rəhbərliyi altında formalaşdırılacaq AXCP-nin prioritetləri, görüləcək işlər barədə məlumat verib. Qeyd edib ki, yenidən qurulacaq partiyada despot idarəçiliyə yer olmayacaq, hər kəs bərabər hüquqlara, söz və fikir azadlığına sahib olacaq. Konfrans çərçivəsində keçirilən səsvermədə Cahangir Kərimov sədr, Mirkənan Məcidli isə Ali Məclisin üzvü seçilib. Qurultayda iştirak edəcək nümayəndələr müəyyənləşdirilib.

Mingəçevir cəbhəçiləri də Razi Nurullayevin ətrafında birləşdiklərini bəyan ediblər. Belə ki, Mingəçevirdə AXCP rayon şöbəsinin konfransında AXCP-nin yenidən formalaşdırılması, fəaliyyət istiqamətləri və partiyanın Əli Kərimlinin sədrliyi altında tənəzzülə doğru getməsi ilə bağlı müzakirələr aparılıb. Tədbir iştirakçıları bildiriblər ki, partiyada baş verən proseslərə etiraz edir, Razi Nurullayevin rəhbərliyi ilə yaradılan AXCP Etimad Qurultayı Təşkilat Komitəsini dəstəkləyirlər.

AXCP Etimad Qurultayı TK-nın üzvü Ehtiram Mehdiyev çıxışında qeyd edib ki, Razi Nurullayevin yürütdüyü siyasət AXCP daxilində daim kölgədə qalan gənclərin həyatı və gələcək siyasi karyerası üçün uğurlu olacaq, nəticədə daha güclü partiya formalaşdırılacaq. 40 nəfərin iştirak etdiyi konfransda Könül Məmmədova Mingəçevir şöbəsinin sədri, Tural Qəhrəmanov Məclis üzvü, Vidadi Qəhrəmanov, Elvin Əjbərli, Elçin Qocayev, Kamran Rəhimli isə qurultay nümayəndəsi seçilib.

# Aynar Məmmədovun maşını cərimə meydançasına aparıldı

## Deputat Elton Məmmədovun oğlunun avtomobilinin ödənilməyən cəriməsi varmış

**Bir neçə gündür ki, Bakıda bahalı maşınlara qarşı ciddi reydlər başlayıb. Lüks avtomobillər Dövlət Yol Polisinin (DYP) əməkdaşları tərəfindən saxlanılır. Qayda pozuntularının qeydə alındığı avtomobillər cərimə meydançalarına aparılır.**

Bahalı maşınlara qarşı başladılan reydlərin səbəbi dəqiq bilinməsə də görünən budur ki, DYP əməkdaşları yoxlama tapşırığını lap "yuxarıdan" alıblar. Çünki adi vaxtlarda DYP əməkdaşları lüks, bahalı nömrəli maşınları saxlamırlar və ya saxlaya bilmirlər. Yol polisləri bu maşınların kimlərə məxsus olduğunu bilirlər.

Sentyabrın 13-də paytaxt Bakıda keçirilən reydlər zamanı xeyli sayda bahalı maşın saxlanılıb və cərimə meydançasına aparılıb.

Reyd zamanı hadisə yerində olan avtosfer.az saytının əməkdaşının qeydlərinə görə, avtomobilin səsgücləndirici qurğusuna müdaxilə edən, ödənilməmiş cəriməsi olan, plyonkadan istifadə edən sürücülər saxlanılaraq məsuliyyətə cəlb olunub. Saxlanılan maşınlar arasında 10 TT 200 dövlət nömrə nişanlı "Maserati" avtomobili də olub.

"Yeni Müsavat" qəzetinin əldə etdiyi məlumata görə, bu maşın nəqliyyat naziri Ziya Məmmədovun deputat qardaşı Elton Məmmədovun oğlu Aynar Məmmədova məxsusdur.

Aynar Məmmədov ilk dəfə deyil ki, bu avtomobillə gündəmə gəlir. Ötən il Aynar Məmmədovun lüks avtomobil kolleksiyası barədə mətbuatda geniş yazılar dərc edilmişdi. Deputat oğlu lüks avtomobilləri, dəbdəbəli həyat tərzi haqda öz instagram səhifəsində məlumatlar, fotolar paylaşmışdı. Mətbuatda tənqidi yazılar dərc edildikdən sonra deputat oğlu səhifəsini bağlamaq məcburiyyətində qalmışdı.

Sosial şəbəkələrdə və youtube-da videoları yayılan digər bir avtomobil - 10 LZ 100 nömrəli "Nissan Skyline GT-R35" də deputat oğluna məxsus idi. Deputatın oğlu və qardaşı bu maşınla göstərdikləri "məharəti" videoya çəkib sosial şəbəkələrdə paylaşmışdılar. Daha sonra bu avtomobil uzun müddət cərimə meydançasında saxlanıldı.

Deputat oğlunun sentyabrın 13-də DYP əməkdaşları tərəfindən saxlanılan maşınının ödənilməmiş cərimə borcları olub. Buna görə də maşın cərimə meydançasına aparılıb.

Qeyd edək ki, Aynar Məmmədov Milli Məclisin Beynəlxalq Əlaqələr şöbəsində məsləhətçi vəzifəsində çalışır. Deputat oğlu işə bu avtomobillə gedib-gəlirdi. Əməkdaşımız bir müddət əvvəl həmin avtomobilin fotosunu Milli Məclisin qarşısında saxlanılarkən də çəkmişdi.

❑ **İlkin MURADOV**
**Musavat.com**









YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015



# Avropanı dağıtmaq xərcləri

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud, Ziyafət müəllim, çox da şey eləmə

**Suveren, müstəqil dövlətimiz "gözə-göz, dişə-diş, buruna-iki qulaq!" prinsipi ilə çalışmaqdadır. Heç kimi cavabsız qoymuruq, maşallah. Hər gün düşmən cavab atəşiylə susdurulur.**

Örnək üçün, Avropa Parlamenti Azərbaycanı kəskin tənqid eləyən qətnamə qayırmışdı. Bundan sonra bir qrup xırda çaplı yaltaq İçərişəhər tərəfdə hansısa ofisin qabağına toplaşıb "Rədd olsun Avropa!" qışqırdılar. Bəlkə də çaşıb Gürcüstan səfirliyini səs bombasına məruz qoymuşdular, çünki deyilənə görə, Avropanın, ATƏT-in bizdə ofisi qalmayıbdır. Hamısı QHT-lərə, jurnalistlərə, müxalifət partiyalarına öldürücü hücumlar vaxtı, bir-iki il qabaqdan şələ-küləlerini yığışdırıb çıxıb gedibdir. Hətta gedəndə belə söz deyiblər: "Biz gedirik, amma o qara şey sizi öldürəcək". Düzü, hələ bilmirik qara şey deyəndə nəyi nəzərdə tutublar, bir versiya var neftdən bəhs ediblər, başqa versiyaya görə Qarabağdan, çünki biz Qarabağsız yaşaya bilmərik.

Uzun sözün qısası, hər kəsin, hər bir düşmənin cavabı öz ranqına uyğun verilməlidir. Ola bilməz ki, misal üçün, erməni iriçaplı mərmilər atsın, sən isə quşatanla çınqıl atasan. Atəşkəs pozulanda layiqli pozulmalıdır. *(Qarabağlılar demişkən, "layıxlı")*. Bəs Avropa Parlamentinin (AP) çəkisində bizim hansı qurum rinqə çıxa bilərdi? Düzdür, başqa vaxt olsa tək Zahid Oruc onların cavabını bülbül cəhcəhi ilə verə bilərdi. Amma indi bir az pis vaxtdır, neft düşüb, manat çezib, müəllimlər ət istəyir, polislər yağ deyir, prokurorların uşaqları oboy yeməkdən kağız kimi ağarıblar. Ona görə də AP-ın qabağına YAP ciddi bir "tarapp" eləməli idi. Məcbur olub ağır artilleriyanı - deputatxananı yay tətilindən, şezlonqdan durğuzub gətirdilər, AP-ın cavabı dünən verildi. Hətta bəzi deputatlar tələsdiklərindən ayaqqabıları qumlu, kürəyi günəş kremli durub gəlmişdilər. Bir neçə deputatın əlində qarpız dilimi vardı. Bəziləri qarğıdalı gəmirirdi. Üç-dörd deputat qətfəyə bürünmüş gəlmişdilər. Bəs necə, axı ana vətən darda idi!

Deputatxananın dünənki növbədənkənar iclası bu baxımdan çox rəngarəng keçmişdir. İlk söz alan Sabir Rüstəmxanlı Avropa Parlamentinin ağzına kəllə qoyub, dodaqlarını partladıb. Bundan sonra Oqtay Əsədov şəxsən Avropa Parlamentini yıxıb yerə, başını soxub kanalizasiya borusuna. Deyilənə görə, həmin borunu hələ Oqtay müəllim "Azərsu"nun müdiri olanda Avropa Yenidənqurma və İnkişaf Bankının krediti ilə qayırıblar.

Ən yaxşı çıxışlardan birini isə, həmişəki kimi, vitse-skiper Ziyafət Əsgərov edibdir. Deyib, Avropa Əfqanıstanı, İraqı-zadı xaraba qoydu, indi bizim də başımıza həmin oyunu açmaq istəyir.

Açığı, burda Ziyafət müəllim bir az siyasi səhvə yol verib, hətta gələcək karyerasını Qaradağ karyerində daşkəsən maşının altına atıb. Çünki Ziyafət müəllim Qərbin həmin Əfqanıstan və İraqı "pis günə qoymaq" əməliyyatında Azərbaycanın da iştirakını gərək unutmazdı. Axı biz də, Allah heç qoymasa, həmin koalisiyaların üzvüyük, əsgərlərimiz Əfqanıstan və İraqda demokratiya qayırırdılar! İraqdan çıxmışıq, amma Əfqanıstanda hələ də qayırırıq. Bu yerlərə əsgər göndərmək haqda qərarları isə elə Ziyafət müəllimin üzvü olduğu deputatxana qəbul eləmişdir - prezidentin uyğun müraciətindən sonra. Adama deyərlər, bəs niyə bu düşmənlərə qoşulurdunuz?

Avropanı dağıdandan sonra deputatxana üzvlərimiz 2016-cı ilin dövlət büdcəsini də qayırıblar, vəziyyət gözlənilən kimi, ürəkaçan deyil. Gələn ilin büdcəsi bu ilinkindən 6 milyard az - 14 milyard manat nəzərdə tutulub. Belə çıxır ki, gələn il yaltaqlara sabun almağa pul verilməyəcək. Gərək Avropanı dağıdanda tez qaçaydılar, uçqun altında qalmazdılar.

# "Ölkədə seçki ab-havası yoxdur"

## Arif Hacılı: "Beynəlxalq Birliyin Azərbaycanda demokratiyaya yumşaq keçidə olan ümidləri artıq tükənib"

**Seçki kampaniyasına artıq start verilib. Prosesin hazırkı mərhələsində işlərinin necə getdiyi, seçkilərlə bağlı ortaya çıxan problemlər, Avropa Parlamentinin ötən həftə qəbul etdiyi sərt qətnamə ilə bağlı ortaya çıxan suallarımıza Müsavat Partiyasının başqanı Arif Hacılı cavab verib.**

**- Arif bəy, Müsavat Partiyası seçki kampaniyasını necə aparır, son 15 gündə hansı işlər görülüb, hansısa problemlər yaşanırmı?**

- Deputatlığa namizədlərimiz 70-ə yaxın seçki dairəsindən tələb olunan sənədləri təqdim edərək imza vərəqələri almaq üçün DSK-lara müraciət ediblər. Bəzi dairələrdə müəyyən problemlər yaradılıb. Zəruri olmayan sənədlər tələb olunub. Yalnız şikayətlərdən, aydınlaşdırmalardan sonra bu məsələlər həll edilib. Bəzi dairələrdə qanunda beş gün müddətində imza vərəqələrinin verilməsi tələb olunsa da bu müddətə əməl olunmur. İmzatoplama prosesində də müəyyən problemlər var. Qobustan Seçki Dairəsində Müsavatın səlahiyyətli nümayəndəsi yerli icra hakimiyyəti və bələdiyyə rəhbərlərinin ətrafında olan adamlar tərəfindən oğurlanaraq aparılıb. Onlara təzyiq edilib, imza vərəqələrinin onların əlindən alınmasına cəhd göstərilib və sair. Yeni bu tipli pozuntular Müsavatın Seçki Qərargahı tərəfindən qeydiyyata alınmaqdadır. Hazırda namizədlərimizin irəli sürüldüyü bütün dairələr üzrə imza toplanması prosesi davam edir.

**- Ümumiyyətlə, ölkədə ictimai - siyasi fəallıq, hakimiyyət strukturlarının davranışı baxımından seçki kampaniyası dövrünü necə qiymətləndirirsiniz?**

- Ölkədə seçki ab-havası yoxdur. Çünki Azərbaycan hakimiyyətinin uzun illər apardığı siyasət nəticəsində Azərbaycan cəmiyyəti seçkilər vasitəsilə dəyişikliklərin baş verəcəyinə inanmır. Eyni zamanda hakimiyyət faktiki olaraq seçki prosesini boykot edir. Əvvəl seçki kampaniyasının dövrünü dörd aydan iki aya endirdilər. Proporsional seçki sistemini ləğv etməklə siyasi partiyaların seçkilərdə rolunu məhdudlaşdırdılar. Təbliğat kampaniyası iki aydan 21 günə endirildi. İndi də seçki kampaniyası dövrünün təxminən dörddə bir hissəsinin geridə qalmasına baxmayaraq, seçkilər mövzusu hakimiyyət tərəfindən, ümumiyyətlə, iqnor edilir. YAP hələ öz namizədlərini irəli sürməyib. Hakimiyyət bütövlükdə ölkədə seçki ab-havasının olmamasına, seçki prosesinin də adi, carı bir proses kimi sakitliklə keçməsinə çalışır. Bu seçkiləri də bundan əvvəlki seçkilər kimi birtəhər yola vermək istəyir.

**- YAP-ın namizədlər siyahısının bu qədər gecikdirməsi, sizcə, nə ilə bağlıdır? Bu, hakimiyyətdəki qruplararası mübarizənin, yoxsa sadəcə bir taktikanın təzahürüdürmü?**

- Birmənalı şəkildə bildirərəm ki, YAP-ın namizədlərini irəli sürməsinin indiyə qədər ləngiməsi hakimiyyətdaxili qruplaşmalar arasında ziddiyyətlərlə bağlıdır.

**- Seçki kampaniyasının yeni başlandığı bir vaxtda Avropa Parlamentindən Azərbaycan hakimiyyətinə qarşı çox kəskin qətnamə qəbul edildi. Hakimiyyət yetkililərinin açıqlamalarından belə görünür ki, onlar seçkiyə az qaldığı bir vaxtda Qərbdən bu qədər kəskin qətnamənin olacağını gözləmirmişlər. Müxalifət üçün bu gözlənilən idimi?**

- Hakimiyyət beynəlxalq qurumlar, bütövlükdə beynəlxalq birlik tərəfindən sistemli şəkildə tənqidə məruz qalır. Xüsusilə insan haqlarının pozulması, ölkədə demokratiyanın inkişafı üçün yaradılmış əngəllər, siyasi məhbusların olması daim beynəlxalq təşkilatlar tərəfindən tənqid edilib. Ancaq Avropa İttifaqının budəfəki qətnaməsi təbii ki, daha ciddi bir hadisədir. Avropa İttifaqı çox ciddi siyasi birlikdir. Bu, hər hansı ictimai təşkilat rolunda olan qurumlardan fərqlənən birlikdir. Bu qətnamənin arxasında Avropa dövlətləri dayanır. Məzmununa görə bu qətnamə əvvəllər Azərbaycan hakimiyyətinə qarşı yönəlmiş bu tipli sənədlərdən daha kəskin, daha birmənalıdır. Hakimiyyət yaranmış vəziyyəti çox ciddi müzakirə etməlidir. Avropa İttifaqını ermənipərəstlikdə, Azərbaycana qarşı qərəzli olmaqda ittiham etməklə bu problemi həll etməyin mümkün olmadığını başa düşməlidir. İrəli sürülən tələblərin yerinə yetirilməsi, ilk növbədə siyasi məhbusların azadlığa buraxılması, ölkədaxili və xarici siyasətin dəyişdirilməsi yolu ilə bu vəziyyətdən qismən də olsa çıxmaq mümkün ola bilər. Çünki Avropa İttifaqı kimi ciddi bir qurumun Azərbaycan hakimiyyətinin apardığı siyasətlə bağlı bu tipli mövqeyi göz ardına alına bilməz. Avropa İttifaqı ilə konfrantasiyanın Azərbaycan hakimiyyəti və eyni zamanda Azərbaycan üçün çox ciddi fəsadları ola bilər.

**- Seçki kampaniyasının yeni başlandığı dövrdə belə bir qətnamənin verilməsi 1 noyabrla bağlı siqnal sayıla bilərmi?**

- Hakimiyyəti konstitusiyanı, qanunları, beynəlxalq birlik qarşısında götürlən öhdəlikləri, bütövlükdə həm Azərbaycan ictimaiyyətinin, həm də beynəlxalq ictimaiyyətin rəylərini iqnor etməklə məşğuldur. Təbii ki, bu cür davranışa dözümlü yanaşma əbədi ola bilməzdi. Göründüyü kimi, Beynəlxalq Birliyin Azərbaycanda demokratiyaya yumşaq keçidə olan ümidləri artıq tükənib.

**- Qətnamədə dolayısı ilə olsa da seçkiləri boykota çağırış da var. Bu qətnamə Müsavat Partiyasının seçki ilə bağlı mövqeyinə təsir edə bilərmi? Məsələn, Müsavat hansısa mərhələdə qəflətən seçkini boykot mövqeyinə keçərmi?**

- Biz öz qərarlarımızı Azərbaycan cəmiyyətinin, demokratik düşərgənin, Müsavatın mənafelərini nəzərə alaraq qəbul edirik. Bu qərarlar kollegial olaraq qəbul olunur. Təbii ki, seçkilərin boykot olunması üçün irəli sürülən arqumentlər də ciddidir. Ancaq aydın görünür ki, hakimiyyət ciddi müxalifət qüvvələrinin seçkilərdə iştirak etməməsi istəyindədir. Diqqət yetirirsinizsə, hakimiyyət bir tərəfdən Avropa İttifaqının Azərbaycanda seçkilərə müşahidəçilər göndərilməməsi çağırışını pisləyir, digər tərəfdən isə faktiki olaraq ATƏT-in müşahidəçi missiyasını Azərbaycana buraxmaq istəmir. Kontengentin sayının 3 dəfədən çox azaldılmasını tələb edir. Təbii ki, seçkiləri boykota çağıran qüvvələr ölkədə mövcud olan siyasi şəraiti, demokratik seçkilərin keçirilməsi üçün müvafiq qanunvericilik bazasının olmamasını, siyasi məhbuslar problemini və digər amilləri nəzərə alaraq belə çağırışlar edir. Amma eyni zamanda Azərbaycan hakimiyyəti bu vəziyyətdən də yararlanmağa çalışır. Hesab edir ki, əgər ciddi siyasi qüvvələr, Beynəlxalq Birlik seçkiləri boykot edərsə, onlar bu seçkiləri də yaxın keçmişdə keçirilmiş bələdiyyə seçkiləri kimi heç kəsin xəbəri olmadan, sakitliklə yola verərək parlamentin ömrünü daha beş il uzada bilərlər. Ona görə də bütün bunlar götür-qoy edilməlidir,



### "Hakimiyyət yaranmış vəziyyəti çox ciddi müzakirə etməlidir"

müzakirə olunmalıdır. Müsavat tam gücü ilə seçkilərdə iştirak etməkdə davam edir. Ancaq biz əvvəldən də bildirmişik ki, bir neçə mərhələdə seçkiləri boykot etmək və ya seçkilərdə iştiraka davam etmək məsələlərini müzakirə edəcəyik. İlk olaraq namizədlər qeydə alındıqdan sonra bu məsələ müzakirə olunacaq. Təbliğat kampaniyası dövründə və bilavasitə seçkilər ərəfəsində də bu məsələ müzakirə oluna bilər. Biz həmin dövrdəki siyasi situasiyaya uyğun olaraq qərar qəbul edəcəyik.

**- AXCP sədri Əli Kərimli bugünlərdə verdiyi videomüsahibədə bildirir ki, yeganə müxalifət qüvvəsinin AXCP, Milli Şura olduğu sübuta yetib. Eyni zamanda deyib ki, Avropa Parlamentinin qətnaməsində də boykot məsələsinin yer alması AXCP-nin, Milli Şuranın mövqeyinin haqlı sayılmasıdır...**

- Onun müsahibəsi ilə tanış deyiləm. Ona görə də şərh edə bilmərəm. Avropa İttifaqının qəbul etdiyi qətnaməyə gəldikdə isə bircə onu deyə bilərəm ki, həmin qətnamənin layihəsinin müəllifi Müsavatın Avropadakı müttəfiqi olan siyasi partiyadır.

**- Bəzi siyasi ekspertlər iddia edirlər ki, Qərb Azərbaycan, Moldova və digər bir sıra postsovet respublikalarında inqilab dalğasının düyməsini basıblar. Avroparlamentin qətnaməsinin də bununla bağlı olduğunu iddia edirlər. Bu iddialarda həqiqət yükü var?**

- Azərbaycanda mövcud olan əsas müxalifət qüvvələri Konstitusiyaya, qanunlara, beynəlxalq hüquq normalarına uyğun olaraq fəaliyyət göstərir. Təəssüf ki, Azərbaycanda bütün bunlara məhəl qoymayan radikal iqtidar mövcuddur. Azərbaycan hakimiyyəti nəinki beynəlxalq normalara, öhdəliklərə, hətta konstitusiya və qanunlarına əməl etmir. Bu baxımdan, Azərbaycanı heç bir beynəlxalq qurum və ya siyasi təşkilat yox, yalnız hakimiyyətin öz siyasəti inqilaba sürükləyə bilər.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015

## Azərbaycan parlamentində qəzəbli çıxışlar

# Avropaya savaş elanı - "...çıxırıq"

### Milli Məclisin növbədənkənar sessiyasında Azərbaycan deputatları Avropa Parlamentini topa tutdular; savaş qərarı kimi elan: "Avronest"də fəaliyyəti dayandırırıq; "Biz hakimiyyəti yox, Azərbaycanın Suriyaya, Liviyaya çevrilməməsini dəstəkləyirik"; "Axı sən kimsən, cənab Şults?!"

**Sentyabrın 14-də Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbədənkənar xüsusi plenar iclası keçirildi. Dövlət himninin oxunmasından sonra spiker dedi ki, Konstitusiyaya uyğun olaraq parlamentin 49 deputatı ona müraciət ünvanlayıb, növbədənkənar iclasın keçirilməsini təklif ediblər. Gündəlikdəki yeganə məsələ ("Avropa Parlamentinin 2015-ci il 10 sentyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin qərarı"nın müzakirəsi) təsdiqləndikdən sonra iclas davam etdi.**



**Spiker O.Əsədov** giriş nitqində dedi ki, Azərbaycan parlamenti dəfələrlə Avropa Parlamentinin qərəzli münasibətinin şahidi olub: "Bu dəfə Avropa Parlamenti bütün çərçivələri keçib, tərbiyəsizcəsinə Azərbaycan siyasi hakimiyyətinə şər atılıb. Biz gördük ki, parlamentin nə qədər deputatı Azərbaycana qarşı qərəzli mövqe tuturlar". **Spiker dedi ki, adətən belə məsələlərdə 40-50, 60 deputat iştirak edib:** "Ancaq bu dəfə Azərbaycanın məsələsini "təxirəsalınmaz" adı altında müzakirəyə çıxarıblar. Çox az halda olub ki, Avropa Parlamentində 635 deputat iştirak etsin, bu dəfə o qədər deputat iştirak edib". Spiker dedi ki, Azərbaycan heç bir qurumun əlaltısı olmayacaq.

Sonra müzakirələrə keçildi.

"Bu qətnamə yalnız Azərbaycan hakimiyyətinin tənqidi deyil. Bu qətnamə bütövlükdə xalqa qarşı qoyulub və xalqın təhdididir. Bu qətnamə xalq üçün qəbul olunan qanunlara ziddir. Heç kim demir ki, Azərbaycanda problem yoxdur. Ancaq bu problemi təhdid kimi istifadə etmək doğru deyil. Burada erməni lobbisinin və türk-islam birliyinə qarşı xristian həmrəylinin hücum cəhdləri var", - deputat **Sabir Rüstəmxanlı** çıxışında dedi.

**Siyavuş Novruzov Avropa Parlamentinin son 2 ildə Azərbaycana qarşı 3 qətnamə qəbul etdiyini söylədi:** "Azərbaycanda gedən inkişafı gözü götürməyən qüvvələrə, o cümlədən Avropa strukturlarına bir daha bəyan edirik ki, Azərbaycan öz müstəqil siyasətini davam etdirəcək. Azərbaycan əleyhinə qəbul edilən qərarlarda iştirak edən şəxslərin bir çoxu bəzi antimilli qüvvələrə qrantların ayrılmasında rolları olub". S. Novruzov Avropa təşkilatlarının seçkiləri müşahidə etməkdən imtinasına "xoruz banlamırdı, səhər açılmırdı" - deyə, reaksiya verdi.

**Qüdrət Həsənquliyev** bildirdi ki, Avropa Parlamentinin qəbul etdiyi bu qətnamə əslində Azərbaycanla Avropa Parlamenti arasında münasibətləri pozmağa yönələn sənəddir və bu, erməni lobbisindən maliyyələşən dairələrin əməlidir.

**Deputat qeyd etdi ki, ölkədəki bəzi qüvvələr hakimiyyətə gəlmək üçün şeytanla da əməkdaşlığa hazırdırlar:** "Bu gün Azərbaycanda milli satqınlar şurası adlandırılan bir şura var. Amma Avropa da bunların satqın olduğunu bilir". **Q.Həsənquliyev qətnamədə Azərbaycan qaçqınları barədə bir kəlmə yazılmadığını xatırlatdı:** "Azərbaycana qarşı sanksiya tələb olunur. Bəs 1 milyon insanı didərgin salan, 20 min insanı qətlə yetirən, 20 faiz ərazini işğal edən ölkəyə qarşı niyə sanksiya tələbi yoxdur?!"

**Vahid Əhmədov Avropa Parlamentinin son on ildə, xüsusilə də "Eurovision" və Avropa Oyunları ərəfəsində qəbul etdiyi qərarların milli maraqlarımıza zidd olduğunu xatırlatdı. Xüsusilə də qarşıdan gələn parlament seçkiləri ərəfəsində belə bir sənədin qəbuluna etirazını bildirdi. Deputat dedi ki, qətnamə faktiki olaraq Ermənistanın işğalına haqq qazandırır, güc yolu ilə torpaqlarımızı azad etməyimizə imkan vermir. V.Əhmədov dedi ki, Avropa qurumlarındakı deputatlarımız, diaspor təşkilatları, XİN ölkəmizə qarşı səs verən deputatlarla işləməlidir:** "Biz qətnaməyə qarşı çıxan 202 deputatın da mövqeyini nəzərə almalıyıq. Mən Avropa Parlamentinin qətnaməsini pisləyirəm. Amma Avropa Parlamenti ilə işləmək lazımdır. Biz Avropadan təcrid olunmamalıyıq, Avropa Parlamenti Avropa dövlətləri demək deyil. Çünki Azərbaycanın Avropa dövlətləri ilə çox sıx əlaqələri var".

**Birinci vitse-spiker Ziyafət Əsgərov: "Bu qətnamə tamamilə saxta, böhtan, yalan, əsası olmayan kağız parçasıdır", - söylədi. Z.Əsgərov dedi ki, 2014-cü ilin sentyabrında da yeni parlament toplaşan kimi, Avropa Parlamenti Azərbaycana qarşı qətnamə qəbul etdi:** "Çünki bizim ölkədə sabitliyin olması bunların maraqlarına uyğun deyil". Jurnalistlərlə bağlı Avropa Parlamentinin tələblərinə gəldikdə, Z.Əsgərov parlament jurnalistlərinə xitab etdi: "Sizə nə vaxt təzyiq olub ki, bunu belə yazmayın, başqa cür yazın? Biz heç məhkəməyə müraciət etmirik. Çünki ulu öndər bir dəfə dedi ki, mən məhkəməyə müraciət etməyə ehtiyac görmürəm, vicdanı var, düz yazsın".

**Vitse-spiker Avropa Parlamentinin Azərbaycana qarşı paxıllıq etdiyini söylədi:** "Çünki bunlarda lider yoxdur, Azərbaycanda var. Bu, sənin problemindir, mənim yox. Siz nə bilirsiniz Azərbaycanda seçkilər necə olacaq? Cənab Şults, sən nə haqla Azərbaycan xalqının əvəzinə seçkilərin taleyini həll edirsən? Axı sən kimsən?! Getdiniz Misiri dağıtdınız, Suriyanı, Liviyanı bombaladınız, Əfqanıstanı pis günə qoydunuz. Bu ölkələri dağıdanda bilmirdinmi humanitar fəlakət olacaq. Bəs ev-eşiyi olmayan insan hara getməlidir? İndi sənin yanına gəlir, qəbul edin onları. Siz Aralıq dənizində 10 minlərlə insanı batırdınız, məhv etdiniz. Açılacaq bütün bunlar. Bu, nə vəhşilik, nə insanlıq, nə demokratiyadır? İndi siz gəlib Azərbaycana ağıl öyrədirsiniz?"

**"Sən demə, qədim qitəni heç bir ölkənin ərazi bütövlüyünün pozulması narahat etmirmiş, əks təqdirdə, öz mövqelərini ortaya qoyardılar"- deyə, vitse-spiker Bahar Muradova öz çıxışında bildirdi. Xanım vitse-spiker dedi ki, bu cür sənədlərin verə biləcəyi nəticələr ilk növbədə Avropa insanlarının taleyinə mənfi təsir göstərəcək:** "Ona görə də mən üzümü avropalılara tuturam, siz siyasətçi, deputat bildiklərinizlə bağlı ciddi düşünün! Mən sizləri gözüaçıq olmağa və seçdiyiniz siyasətçilərdən haqlı mövqeyi tələb etməyə çağırıram! Bu gün əlbir olsaq, dünyanı xilas edəcəyik. Bu gün dünya təhlükədədir".

**Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov** dedi ki, Avropa Parlamenti Azərbaycandakı seçkilər ərəfəsində tez- tələsik böhtan dolu qətnamə qəbul etməklə öz nüfuzuna böyük zərbə vurdu və onlar uzun müddət bunun altından çıxa bilməyəcəklər.

**Azay Quliyev Azərbaycanın Avropa qurumlarının qərəzli münasibətlərinin qarşılığında sərt mövqedən çıxış etməsini zəruri saydı. Deputat bildirdi ki, bu qətnamədə o qədər absurd ifadələr var ki, onu ciddiyə almamalıyıq:** "Bizim Avropa İttifaqı ilə münasibətlərimiz şəffaf şəkildədir. Biz "Avronest" lə də əməkdaşlıq etdik. Amma onlar müqabilində bizə riyakarlıq, ikiüzlülük göstərdilər. Avropa İttifaqının yüksək çinli rəsmilərinin səfəri təxirə salınıb. Bu siyasət davam etməlidir".

**Asim Mollazadə dedi ki, Avropa Parlamentində qəbul olunan sənəd Azərbaycana qarşı informasiya müharibəsinin, ideoloji mübarizənin təzahürüdür. A. Mollazadə də bu təzyiqlərin arxasında konkret layihələrin dayandığını bildirdi:** "Biz Azərbaycan və Türkiyə diasporu olaraq öz etirazlarımızı Avropa Parlamentinin qarşısında bildirməliyik. Biz müstəqil dövlət kimi "böyük qardaşlar"dan imtina etmişik. Bundan sonra da müstəqilliyimizin ətrafında birləşərək bizə böyüklük etmək istəyənlərə "yox" deməliyik".

**Milli Məclisin ağsaqqal deputatı Fəttah Heydərov çıxışı zamanı bildirdi ki, mənbəyi və mənşəyi bilinən qrupun qəbul etdiyi qətnamələrin müzakirəsini təqdir edir:** "Bu qətnamə demoqogiyadan, antisülh, antibəşəri xarakter daşıyan cızmaqaradan başqa bir şey deyil. Burda göstərilən faktların heç biri reallığa uyğun deyil. Azərbaycan regionda nümunəvi dövlətdir, bunu ölkəmizə gələnlər də etiraf edir. Avropa Parlamenti ölkəmizə qarşı sanksiya tələb edir. Azərbaycan prezidentinin apardığı siyasət region və dünya üçün nümunəvi siyasətdir. Bu günədək 1 milyon qaçqın-köçkünümüzün haqlarının bərpa olunmasını tələb etməyən qüvvələr Azərbaycanın nailiyyətlərinə, inkişafına paxıllıq hissindən irəli gələrək ortaya belə bir sənəd qoyublar. Bu sənəd bir tərəfdən bizi ayıqlığa səsləyir, eyni zamanda biz bu qətnamədən çox da narahat olmağa ehtiyac yoxdur. Biz bu cür sənədlərə qətiyyətlə cavab verməliyik".

**Musa Quliyev dedi ki, bu qətnaməni qəbul etmək istəyənlər Azərbaycanı sözəbaxan, marionet dövlət kimi görmək istəyirlər:** "Bunu görməyəcəklər! Əslində Avropa Parlamenti bir xristian klubudur, ilk gündən Azərbaycana qarşı mövqe ortaya qoyurlar. Əslində Avropa Parlamenti müstəqil deyil, bir kukla teatrıdır, oradakılar da maskalı aktyorlardır". Deputat "Avronest"lə bütün əlaqələri kəsməyə çağırdı.

**Fazil Mustafa xatırlatdı ki, əvvəlki illərlə müqayisədə son dövrlər ən barışmaz müxalif qüvvələrdə belə Avropa qurumları ilə bağlı fərqli münasibət formalaşıb:** "Bu gün yeni bir situasiya yaranıb. Son illərdə Avropa İttifaqı balansın Ermənistanın xeyrinə dəyişməsi üçün Azərbaycana qarşı siyasi təzyiqlərə üstünlük verir. Biz hakimiyyəti yox, Azərbaycanın Suriyaya, Liviyaya çevrilməməsini dəstəkləyirik. Biz bu seçimi mütləq o formada etməliyik ki... Əks təqdirdə, ölkəmiz Ukraynaya çevrilə bilər, daha böyük fəlakəti yaşaya bilər".

**Zahid Oruc bildirdi ki, 20 ildir Azərbaycan cəmiyyətində "erməni kimi tanınan" bir şəxsin fəaliyyətinə nəhayət son qoyuldu:** "Söhbət Leyla Yunusdan gedir. İndi siz təsəvvür edin ki, biz Saakyanı, Qukasyanı cəzalandırsaq, Azərbaycana qarşı hansı münasibət olar"? Z. Oruc həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycanda ingilis dilli bir telekanal yaratmağa çağırdı. Deputat seçkilərlə bağlı təzyiqləri də xatırlatdı: "Qərb açıq şəkildə deyir ki, parlamentdə mənim maraqlarımdan çıxış edən insanlar olmalıdır".

**Çingiz Qənizadə: "Avropa Parlamentinin qəbul etdiyi qətnamə riyakarlıqdan başqa bir şey deyil", söylədi. Deputat Leyla Yunusun davranışlarını xatırlatdı:** "Sanki bu adama tutulmaq, təzyiq altında qalmaq lazım idi ki, gələcəkdə hardasa sığınacaq tapsın. Rasim Əliyev isə məişət zəminində qətlə yetirilib, buna görə 6 nəfər həbs edilib və məsələ prezidentin nəzarətindədir".

**Milli Məclisin yəhudi əsilli deputatı Yevda Abramov parlamentdəki bugünkü çıxışı zamanı dedi ki, Azərbaycana qarşı fəaliyyət göstərən qüvvələr əslində 2003-cü ildə prezident seçilən İlham Əliyevin 6, maksimum 11 aydan sonra hakimiyyətdən gedəcəyini proqnozlaşdırırmış. Amma onlar bu hakimiyyətin uzun illər davam etməsini sinirə bilmədikləri üçün ölkəmizə qarşı təzyiqlərə start veriblər. Deputat Avropa Parlamentini "Xristian klubun vazgenlər şurası" adlandırdı. Y. Abramov həmkarlarını xaricdə sözlərini deməyə çağırdı:** "Çoxları bu mikrofon qarşısında qəhrəman olur. Ancaq xaricdə danışmaq lazımdır. Düşməni evində boğmaq lazımdır. Mən bu kampaniyaya qoşulan yəhudilərə də müraciət edirəm, bizim 6 milyon soydaşımızı Avropa məhv edib".

**Fəzail Ağamalı** Avropa Parlamentinin hələ 1988-ci ildən Azərbaycana qarşı qərəzli olmasını faktlarla xatırlatdı, qurumun erməniləri müdafiə etməsindən bəhs etdi. **Elman Məmmədov** da ermənipərəst avopalılarla sərt dillə danışmağı zəruri saydı.

**Müzakirələrin yekununda vitse-spiker, Avropa İttifaqı Azərbaycan parlament əməkdaşlığı komitəsinin rəhbəri Valeh Ələsgərov sədrlik etdiyi redaksiya komissiyasının hazırladığı qərarı oxudu. Sənəddə Avropa Parlamentindən Azərbaycana qarşı qərəzli münasibətə son qoymaq tələb olunub.**

"Avropa Parlamentinin 2015-ci il 10 sentyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisin qərarı" adlı sənəddə AP-dan tələb olunur:

- Azərbaycana qarşı pozucu fəaliyyətlərə və qərəzli kampaniyalara son qoyulsun;
- Avropa Parlamenti nüfuzuna xələl gətirən fəaliyyətin qarşısı alınsın;
- Azərbaycan nümayəndə heyətinin Avronest Parlament Assambleyasının iclaslarında iştirak etməsinə son qoyulsun, fəaliyyəti dayandırılsın;
- Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycanın məsul şəxsləri ilə bağlı sanksiya tətbiq olunacağı təqdirdə, Avropa Parlamenti üzvlərinin Azərbaycana girişinə qadağa qoyulsun".

**Qərar səsə qoyularaq qəbul edildi. Spiker deputatlara seçkidə uğurlar arzuladı və himnin oxunuşu ilə sessiya bağlı elan olundu.**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015



# Sərxoş ağsaqqalın alqışı: "Allah işinizi ağır eləsin"

Samir SARI

**Ağsaqqala bax, deyir, toyxanadan çıxıram, yemişəm, içmişəm, lap yaxşı eləmişəm, dünya vecimə deyil, məni də cərimələyə bilməzlər, siz də əlinizə almısız bu şturvalı, düşmüsüz ortaya, mənim 67 yaşım var, həyatda xeylam iş görmüşəm, sizin kimiləri də... belə görməmək üçün içirəm, yaxşı eləyirəm.**

Baxırsan ki, el ağsaqqalıdır, saç dümağ, köynək dümağ, şalvar dümağ, maşın dümağ. Ayaqqabısı videoada görünmədi, güman ki, o da ağdır. Saqqalını qırxmasa, bir az uzatmış olsa, əlində qopuzu, çəliyi olub-olmamasına baxmayaraq, Dədə Qorqud hesab etmək olar.

İntəhası, ağsaqqal toyxanadan çıxandan sonra maşını nə təhər sürübsə, yol polisləri onun içkili olduğunu anlayıblar və saxlayıblar. Əli mikrofonlu, "şturval"lı jurnalistlər də tökülüşüb ağsaqqalı dövrələyiblər ki, bəs içkili halda niyə maşın sürürsən, dövlətin qanunu var, filanı var.

Belə yerdə ağsaqqal neyləməlidir? Əlbəttə, hiddətlənməlidir, onun yaşına-başına baxmayan, o boyda kişini sorğu-sual edən uşaq-muşağa nifrətini bildirməlidir. O da elə edir və biləndə ki, onlar jurnalistdir, deyir, "Allah işinizi ağır eləsin".

Hərçənd belə bir qarğış Dədə Qorquda, o statusda olan adama yaraşmaz. Qədim Dədə eyzən alqış edərdi, deyərdi: "Azıb gələn qadanızı tanrı sovsun, xanım hey!; Axır vaxtında arı imandan ayırmasın!; "Qadir tanrı səni namərdə möhtac etməsin!; Qanadların ucları qırılmasın!; Çaparkən ağ-boz atın büdrəməsin!" və s. Google-də axtarış verəndə belə alqışlardan çox çıxır.

Bizim içkili tutulmuş müasir ağsaqqal isə deyir, "Allah işinizi ağır eləsin". Rəhmətliyin oğlu, bundan ağır nə işi olacaq jurnalistin? Zatən ağırdır də. Həm də jurnalistlər elə tayfadır ki, işləri ağır olanda həzz alırlar, özləri ilə ştativ hərləməkdən də bezmirlər.

İndi buna nə deyəsən, altındakı ağ-boz atı büdrəyib, az qala qanadlarının ("krelo") ucunu bordürə vuracaqmış, üstəlik, axır vaxtında arı imandan ayrılmış kimi görünür. Bununla belə, deyir, necə istəyirsiniz, çəkin, eləcə də verin efirə, dünya vecimə də deyil.

Əvvəllər bu yaşda, bu görünüşdə olan adamları qan barışdırmağa aparardılar. Onlar da ağır başları ilə gedib oturardılar məclisin başında, armudu stəkana süzülmüş çayı ehmalca qurtumlayaraq, deyərdilər, gəlin siz ağsaqqala qulaq asın, davadan, intriqadan bir şey çıxmaz, barışmaq lazımdır. Tərəflər bir xeyli qarşılıqlı gileyləşmədən sonra deyərdilər: "El ağsaqqalı necə məsləhət görürsə, elə olsun".

Bundan qabaqlar bu cür ağsaqqallar nəinki içki içməzdilər, hətta cavanlar da onlarının gözünün qabağında qədəh toqquşdurmazdılar, məclisdə özlərini elə aparardılar ki, guya mineral su içirlər. Ağsaqqal da durub yerini dəyişərdi ki, nə gənclər sıxılsın, nə də aradakı pərdə götürülsün (Çünki bəzi sarsaq gənclər olur ki, arada başları çönür, iki qədəhdən sonra gözlərinə ağsaqqal-qarasaqqal görünmür).

Orası da var ki, yüngülməcaz saqqalı ağ kişilər həmişə olub və gələcəkdə də olacaq. Kənd yerlərində oğlu, nəvəsi yerində gənclərə qoşulub 20 qəpikdən qumar oynayan, arada kiminsə cığallığını görəndə "yalançı oğraşdı" deyə söyüşən, toyda "mənim havamdır" deyə colma-cocuqla mübahisə edən, sonra ortalığa düşüb təngnəfəs olan qədər oynayan 70 yaşlı kişilər hələ də var.

Yol polisi tərəfindən içkili tutulan ağsaqqal onlardan biridir, sadəcə, bəxti gətirib ki, şəhərdə yaşayır, vaxtında babat vəzifədə olub, pulu-imkanı, bahalı maşını var, amma qafa olaraq dalda-bucaq yerlərdə çöməltmə oturub gənclərlə qumar oynayan, araq içən tay-tuşlarından irəli deyil.

Bir sözlə, hiss olunur ki, yavaş-yavaş ağsaqqalıq institutu iflasa uğrayır. Söhbət heç də ahıl yaşda olan adamın o qədər içəndən sonra avtomobillə küçəyə çıxaraq camaatın həyatına təhlükə yaratmalarından və "yaxşı eləyirəm" deməsindən getmir. Son vaxtlar bəzi ağsaqqallar yaltaqlığın zirvəsini fəth ediblər, həmişə haqsızın, zorakının yanındadırlar, bir dəfə dillərinə düz söz gəlməz, hər zaman öz haqqını tələb edən gənclərin ətəyindən çəkər, "dinmə" deyərlər və sair və ilaxır.

Bu cür yaşlı adamların ictimai-siyasi planda bir ağsaqqallıqları olmadığı kimi, heç demə, məişət müstəvisində də örnək götürməli bir şeyləri yox imiş.

# Rusiyadan gələn və azalan pullar...

**Rusiyadan Azərbaycana pul köçürmələri azalıb. Bu ilin II rübündə fiziki şəxslərin pulköçürmə sistemləri vasitəsilə Rusiya və Azərbaycan arasında transsərhəd pulköçürmələrinin həcmi 225 milyon dollara çatıb. Rusiyanın Mərkəzi Bankı xəbər verir ki, bu, 2014-cü ilin II rübü ilə müqayisədə 148 milyon ABŞ dolları və ya 39,68 faiz azdır.**

## Ekspertlər bildirirlər ki, pul köçürmələrindəki azalma regionlara, həmçinin daşınmaz əmlak bazarına ciddi təsir göstərəcək...

Məlumata görə, bu ilin II rübündə Rusiyadan Azərbaycana 190 milyon ABŞ dolları həcmində vəsait köçürülüb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 144 milyon ABŞ dolları və ya 43,11 faiz azdır. Bu ilin aprel-iyun aylarında ölkəmizə hər əməliyyat üzrə orta hesabla 519 ABŞ dolları köçürülüb.

Xatırladaq ki, 2014-cü ilin II rübündə transsərhəd pulköçürmə sistemləri vasitəsilə Rusiyadan Azərbaycana 334 milyon ABŞ dolları göndərilib. Bu zaman hər əməliyyat üzrə pul köçürmənin orta məbləği 654 ABŞ dolları olub.

Bu ilin II rübündə Azərbaycandan Rusiyaya pul köçürmələrinin həcminə gəlincə, illik müqayisədə burda da azalma müşahidə olunub. Belə ki, bu ilin aprel-iyun aylarında hər əməliyyat üzrə orta məbləğ 568 ABŞ dolları olmaqla, Azərbaycandan şimal qonşumuza ümumilikdə 35 milyon ABŞ dolları həcmində pul köçürülüb. Bu isə 2014-cü ilin müvafiq dövründəkindən 4 milyon ABŞ dolları və ya 10,26 faiz azdır. Başqa sözlə, ötən ilin ikinci rübündə Azərbaycandan Rusiyaya hər əməliyyat üzrə orta məbləğ 689 ABŞ dolları olmaqla, ümumilikdə 39 milyon ABŞ dolları həcmində vəsait daxil olub.



**Ekspertlər bildirirlər ki, Rusiyadan Azərbaycana göndərilən pulların azalması ölkə iqtisadiyyatına təsirsiz ötüşməyəcək. Ekspert Samir Əliyev məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, pul köçürmələrinin 40 faizdən çox azalması ciddi məqamdır və iqtisadiyyata böyük təsiri olacaq:** "Ümumiyyətlə, Rusiyadan MDB ölkələrinə pul köçürmələri azalıb. Səbəbi Rusiyanın düşdüyü iqtisadi durum və rublun ucuzlaşmasıdır. Orada qazanılan pullar rubllaşdır, Azərbaycana köçürüləndə xarici valyuta vasitəsilə, dollarla köçürülür. Ona görə də rublun ucuzlaşması dollar ifadəsində az olur, məzənnəyə görə azalır. Rusiyada vəziyyət əvvəlki səviyyədə deyil, getdikcə pisləşir. Həm qazanc azalır, həm də soydaşlarımız itirir. Nəticədə bugünkü vəziyyət yaranır. Azərbaycandan gedən soydaşlarımızın demək olar ki, hamısı regionları təmsil edir. Ona görə də Rusiyadan pul köçürmələrinin azalması ilk növbədə regionlara təsir edəcək. Rusiyadan gələn pulların azalması daşınmaz əmlak bazarına, evlərə də təsir edəcək. Alınan evlərin böyük əksəriyyəti Rusiyadan gələn pullar hesabına idi, indi onlar azalıb. Daşınmaz əmlak bazarında süstlük yaranıb. Bu, avtomobil bazarına da təsir göstərəcək".

**Ekspert Pərviz Heydərov isə qeyd edib ki, Rusiya iqtisadiyyatındakı böhran, rublun məzənnəsinin enməsi sözügedən ölkədə yaşayan və bu ölkəyə müvəqqəti qazanc məqsədilə gedən vətəndaşlarımız və soydaşlarımız üçün maddi itkilərlə nəticələnir:** "Bu, özünü ölkəmizə şimaldan pul axınlarının həcminin azalmasında göstərir. Sözsüz ki, bu, müsbət hadisə deyil. Lakin şimaldan nağd pul axınının həcminin azalmasının ölkəmizin daxili istehlak bazarında qiymətlərin qeyri-təbii yolla yüksəlməsi faktorunun qarşının alınması və yaxud bu tendensiyanın zəifləməsi baxımından müəyyən mənada müsbət əhəmiyyəti də vardır. Ümumiyyətlə, ölkəyə, sadəcə olaraq, nağd pul vəsaitinin idxalı inflyasiyaya və qiymət artımına təsiredici faktordur. Bundansa investisiya xarakterli pul axını daha sərfəlidir. Odur ki, Rusiyadan ölkəmizə gələn pulların azalmasını elə də narahatedici amil kimi dəyərləndirmək lazım deyil. Bu, sadəcə olaraq, müəyyən ailə qrupları üzrə sosial yaşayış vəziyyətinin pisləşməsi baxımından narahatlıq yaradır.

Odur ki, istənilən halda rus rublunun ucuzlaşması ölkəmiz üçün bütövlükdə xeyirdən çox zərər gətirir".

Ekspertlər bildirirlər ki, Rusiyadan pul köçürmələrinin azalması sırf bu ölkədəki iqtisadi durumla bağlıdır. Amma Rusiyadan pul köçürmələrinin getdikcə azalması Azərbaycandakı sosial-iqtisadi durum üçün də yaxşı heç nə vəd etmir. Digər tərəfdən, hazırda dünya bazarında neftin qiymətinin qeyri-müəyyən olması Azərbaycanın neft gəlirlərinə ciddi təsir edir. Neft gəlirlərinin azalması ölkə büdcəsinin formalaşmasında da problemlərin yaranacağı deməkdir. Büdcədə kəsirə isə daha çox investisiya xərclərinin məruz qalacağını söyləmək olar.

❑ RÖYA

# Dərmanlar bu gündən yeni qiymətlə satılacaq

**Bu gündən Tarif Şurası tərəfindən təsdiq edilmiş 25 təsiredici maddə üzrə (kombinə olunmuş dərman vasitələri istisna olmaqla) 1057 dərman vasitəsinin yeni qiymətləri qüvvəyə minəcək.**



Tarif Şurasının qərarına əsasən həmin tarixdən etibarən qiymətləri təsdiq edilməyən qeyd olunan tərkibli dərman vasitələrinin satışı yalnız qiymətlər təsdiq edildikdən sonra həyata keçirilə bilər.

Tarif Şurasının 2015-ci il 30 iyul tarixində keçirilmiş iclasında 256 dərman vasitəsi üzrə qiymətlər təsdiq edilib. İclasda ilk mərhələdə həyati vacib və daha çox tələbat olan 25 təsiredici maddə üzrə 250-dən çox dərman vasitəsinin qiyməti təsdiqlənib. Hazırkı qiymətlərə nisbətən qiymətləri tənzimlənmiş dərman vasitələrinin 20 faizinin qiyməti 3 dəfədən, 40 faizdən artıq dərman vasitəsinin qiyməti isə 2 dəfədən çox, ümumilikdə isə qiymətləri tənzimlənmiş dərman vasitələrinin 90 faizinin qiymətləri enib.

Şuranın 2015-ci il 25 avqust tarixində keçirilmiş növbəti iclasında isə daha 801 dərman vasitəsinin qiyməti müəyyənləşdirilib. Ümumilikdə, elan olunmuş 25 təsiredici maddə üzrə 1057 dərman vasitəsinin qiymətləri tənzimlənib ki, bunun nəticəsində hazırda satışda olan dərman vasitələrinin qiymətləri ilə müqayisədə 46% dərman vasitəsinin qiyməti 2 dəfədən çox, 24% dərman vasitəsinin qiyməti 3 dəfədən çox ucuzlaşdırılıb, bütövlükdə isə həmin tərkib üzrə satışda olan dərman vasitələrinin 94%-i üzrə qiymətlər aşağı salınıb. Bununla da dövlət qeydiyyatına alınmış dərman vasitələrinin təqribən 15%-nin hazırkı qiymətlərlə müqayisədə əhəmiyyətli dərəcədə aşağı olan satış qiymətləri təsdiqlənib. Böyük sosial əhəmiyyət kəsb edən bu proses bütün dərman vasitələrinin qiymətləri tənzimlənənədək intensiv şəkildə davam etdiriləcək və bu ilin sonunadək əksər dərman vasitələri üzrə qiymətlərin tənzimlənməsi başa çatdırılacaq.

Qeyd edək ki, Tarif Şurasının son iclasında daha 55 yeni təsiredici maddə üzrə dərman vasitələrinin qiymətlərinin təsdiqlənməsi üçün sənədlərin (bəyannamələrin) qəbulu elan olunub və bunun üçün son müddət 2015-ci il sentyabr ayının 10-dək müəyyən edilib.

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015

# 3 dinin müqəddəs məbədi - Məscid əl-Əqsa



## Davudun tikdirdiyi, Süleymanın başa çatdırdığı, Məhəmməd Peyğəmbərin (s.ə.s) meraca getdiyi müqəddəs məbəd

**Xəbər verdiyimiz kimi, Qüds şəhərində əl-Əqsa məscidi kompleksində İsrail polisi ilə fələstinli gənclər arasında toqquşma olub. Məscidə daxil olan İsrail polisi içəridə olan dindarları həbs edib. BBC-nin məlumatına görə, polis məsciddə gözyaşardıcı qazdan, rezin güllələrdən və səs bombalarından istifadə edib, onlara qarşı isə daş və fişənglərlə hücum olub.**

Qeyd edək ki, İsrailin əl-Əqsa məscidini müsəlmanlardan almaq cəhdi zaman-zaman qarşıdurmalara səbəb olur. Ötən ay isə İsrail hökuməti əl-Əqsa məscidi yanında sinaqoq tikiləcəyini elan edib. Bu isə müsəlmanların etirazına səbəb olub. Bugünlərdə İsraildə yəhudilərin müqəddəs Roş Haşana bayramı qeyd olunur. Güman olunur ki, polisin məscidə hücumu yəhudilərin bayram münasibətilə məscidə daxil olmasına şərait yaratmaq məqsədi güdüb. Məlum olduğu kimi, müsəlmanlar üçün ilk qiblənin yerləşdiyi və İslam Peyğəmbərinin (s.ə.s) meraca getdiyi məkan hesab olunan əl-Əqsa məscidi yəhudilər üçün də müqəddəs məkandır.

Qeyd edək ki, Məscid əl-Əqsa Quranda mübarək məkan adlandırılıb, müsəlman aləmi üçün Məkkədən sonra ikinci müqəddəs məkandır. Məscidin adı Məhəmməd Peyğəmbərin (s.ə.s) sağlığında Məkkəyə ən uzaq yerdə olması səbəbindən Məscid əl-Əqsa adlandırılıb. Ancaq bu müqəddəs məkanın tarixi İslamiyyətdən çox-çox qədimə gedir. Beyt əl-Maqdis və ya Beytül Müqəddəs adlanan məbəd Quranda adı keçən həzrət Davud Peyğəmbərin zamanında inşa olunub. Ancaq rəvayətə görə, Həzrət Davud bu məbədin divarları bir adam boyu hündürlükdə olanda vəfat edib. Tikintini və 12 məhəllədən ibarət olan Qüds şəhərini bütövlükdə inşa etdirib başa çatdırmaq Davudun oğlu Həzrət Süleymana nəsib olur. Məscid əl-Əqsanın tikintisində qızıl, gümüş, yaqut və başqa zinət əşyalarından istifadə olunub, tikinti 7 ilə başa gəlib.

Hədislərə görə, ilk vaxtlarda məbədin adı Beyt əl-Maqdis kimi qeyd olunurmuş. Ancaq sonradan Quranda da nəql olunan Məscid əl-Əqsa adından istifadə olunmağa başlayır. Rəvayətə görə, Həzrət Süleyman nəsildən-nəslə keçən və içərisində Həzrət Musadan yadigar qalan qədim Tövrat nüsxəsinin olduğu Əhd sandığını *(Tabutu Səkinə)* Məscid əl-Əqsaya qoyub. Lakin sonrakı illərdə Qüdsə hücum edərək işğal edən Assuriya hökmdarı Buhtunnasr *(İbranicə Nabuchodonosor-Nabukednazar)* məscidi qarət edərək Babilə aparıb. Sonradan Məscid əl-Əqsa bərpa olunsa da, eramızın 70-ci ilində Qüdsü işğal edən Roma İmperiyası orduları şəhəri və eləcə də Məscid əl-Əqsanı yandırıb dağıdırlar. Bu təqvim eyni zamanda Məscid əl-Əqsanın yəhudiliklə əlaqəsinin sona çatdığı dövr hesab olunur.

Bizim eranın 123-cü ilində Bizans İmperiyası Məscid əl-Əqsanı təmir edib. Məscid əl-Əqsanın yenidən parlaması isə İslamiyyətlə başlayıb. İslamın ilk illərində Həzrət Məhəmmədin (s.ə.s) Meracı hadisəsi baş verir. Bu hadisə zamanı İslam Peyğəmbəri Məscid əl-Həramdan (Məkkədəki Kəbə) Məscid əl-Əqsaya gəlir və burda namaz qılır. Bu dövrdə Məscid əl-Əqsa həm də müsəlmanların qibləsi, yəni namazda üzlərini çevirrib ibadət etdikləri istiqamət idi. Yalnız Mədinəyə hicrətdən 16 ay sonra Allahdan gələn vəhylə müsəlmanların qibləsinin Məkkə (Kəbə) olduğu bəyan olunur. Ancaq əl-Əqsa müsəlmanların ilk qibləsi olaraq müqəddəs məkan olaraq tanınır.

638-ci ildə ikinci xəlifə Ömər Suriyaya səfəri zamanı Məscid əl-Əqsanı ziyarət edib. Məhz xəlifənin tapşırığı ilə məscid yenidən bərpa olunub və ibadətə açılıb. Eyni zamanda İslamın təkallahlı dinlərə olan hörmətinin bir nümunəsi olaraq əl-Əqsa məscidində həmin vaxt yəhudilərin də ibadət etməsi üçün icazə verilib. Həmçinin Qüdsdəki xristian kilsələri də ibadətə açılıb. Sonradan Əməvi xilafəti dönəmində əl-Əqsa yaxınlığında Qubbət əl-Səhra məscidi tikilir.

1099-cu ildə Qüdsü işğal edən Avropa səlibçi ordusu şəhəri tamamilə qarət edib yandırır. Bu zaman xristian səlibçilər xiristinalıq tarixində mühüm yeri olan Məscid əl-Əqsanı da qarət edib yandırırlar. Daha sonra səlibçilərin Qüdsdəki hakimiyyəti dönəmində Məscid əl-Əqsa klisəyə çevrilir. Ancaq xristianların Qüdsdə hakimiyyəti 88 il davam edir.

1187-ci ildə Səlahəddin Əyyubinin rəhbərlik etdiyi müsəlman orduları Qüdsü azad edir. əl-Əqsa kilsə heykəllərindən təmizlənərək yenidən məscid kimi fəaliyyət göstərməyə başlayır. Qeyd edək ki, Məscid əl-Əqsa bir ibadət ocağı, müqəddəs məkan olmaqla yanaşı, həm də İslam təhsil mərkəzi rolunu oynayıb. Əməvi, Abbasi, eləcə də Əyyubilər və Məmlüklər zamanında məscid həm ibadət, həm də dini təhsil mərkəzi kimi fəaliyyətini davam etdirib.

1517-ci ildə Yaxın Şərqin Osmanlı İmperiyasının ərazilərinə qatılması ilə Məscid Əqsanın uzun bir sabitlik dönəmi başlayır. Osmanlılar İslamda böyük yeri olan Məscid əl-Əqsaya xüsusi diqqət göstəriblər, daim təmir və bərpası, xidmət edilməsini təmin ediblər.

1947-ci il noyabrın 29-da BMT Fələstin ərazilərində ərəb və yəhudi *(İsrail və Fələstin)* dövlətlərinin yaradılması ilə bağlı qərar qəbul edir. Qərara görə, Qüds şəhəri beynəlxalq statuslu ərazi olmalı idi. Ancaq yəhudilər 1948-ci il mayın 15-də dövlət elan edir və fələstinlilər dövlət yarada bilmir. 1948-ci ildə baş verən savaşda İsrail Qüdsün qərb hissəsini, 1967-ci il 6 günlük savaşda isə bütövlükdə şəhəri işğal edən yəhudilər orda öz qaydalarını qoymağa başlayır. 1969-cu ildə avstraliyalı bir fanatik protestant Məsciq əl-Əqsanı yandırır. Ancaq bəzi iddialara görə, məscidin yandırılmasını İsrail xüsusi xidmət orqanları təşkil edir. Bu hadisə müsəlman dünyasında böyük etirazlara səbəb olur.

Qeyd edək ki, yəhudi və müsəlmanlarla yanaşı, Qüds, eləcə də Məscid əl-Əqsa xristianlar üçün də müqəddəs məkan mahiyyətindədir. Belə ki, Həzrət İsanın bu torpaqlarda dünyaya göz açması, yaşaması, nəhayət, çarmıxa çəkilməsi bu torpaqlarda baş verib. Qüds xristianlığın başlanğıc yeri kimi xristianlar üçün müqəddəs dəyərə malikdir.

Sonrakı illərdə - 1980 və 1982-ci illərdə iki dəfə əl-Əqsa məscidinin uçurdulmasına cəhdlər olub. Eyni zamanda məscid Fələstin davasının simvoluna çevrilib. İsrail hökumətinin müəslmanları məsciddən çıxarması cəhdi hər dəfə güclü müqavimətə rast gəlib. 1990-cı ildə İsrail hökumət qüvvələrinin məscidə ibadət zamanı hücumu nəticəsində 30 nəfər ölüb, 800 nəfər isə yaralanıb. Müşahidəçilərə görə, İsrail hökuməti fələstin və müsəlman müqavimətinin simvoluna çevrilmiş məscidi müsəlmanlardan təmizləmək, sırf "yəhudiləşdirmək" üçün müsəlmanları ordan çıxarmaq, ətrafda yeni təmir-tikinti aparmağa çalışır. Bu isə öz növbəsində müsəlmanların sərt etirazına səbəb olur. Hər il dünyanın müxtəlif ölkələrində min illər boyunca hər 3 dinin müqəddəs ibadət ocağı olmuş məscidin müdafiəsi ilə bağlı aksiyalar keçirilir.

❑ KƏNAN

# Bakı üçün siyasi "Avropa Oyunları"



Kənan RÖVŞƏNOĞLU

**Azərbaycanda ciddi hadisələr baş verir. Avropa Parlamentinin ötən həftə aldığı qərar Bakıda böyük qəzəblə qarşılanıb. Dövlətin bütün rəsmi şəxsləri, nazirlər, deputatlar, yan qurumlar hər kəs Avropaya qəzəb püskürür, nifrətini büruzə verir.**

Məlum olduğu kimi, Avropa Parlamenti son iki ildə Azərbaycana qarşı bir neçə qətnamə qəbul edib. Lakin ilk dəfə olaraq qəbul olunan qətnamədə Avropa Komissiyası ilə üzv ölkələri Azərbaycanda davam edən təqiblərə güclü və birgə cavab verməyə, habelə siyasi təqiblərdə əli olan hakimlər, rəsmilər və siyasətçilərə qarşı sanksiya və viza qadağası məsələsinə baxmağa çağırır. Sanksiya çağırışı ilk faktdır və Avropanın Azərbaycana qarşı, necə deyərlər, sərt üzünün göstərilməsidir.

Ancaq bu qətnamənin məhz seçkilər ərəfəsində qəbul olunması və Bakının həddən artıq qəzəbli reaksiyası göstərir ki, budəfəki qərar əvvəlkilərdən hər mənada fərqlənir. Bu qərar Azərbaycan hakimiyyətinə, o cümlədən siyasətçi və məmurlara qarşı sanksiyalara səbəb ola bilər. Bundan başqa, Azərbaycanın faktiki olaraq Avropa ilə əlaqələri üzərinə kölgə salır. Amma Bakını daha çox narahat edən bu qərarın "arxa bağçasıdır".

Məsələ ondadır ki, AP-nin son qərarı və buna qədər aparılan fəaliyyət Azərbaycanda faktiki olaraq siyasi hakimiyyət dəyişikliyi, rəngli inqilab üçün başlanğıc hesab oluna bilər. Belə ki, gələn məlumatlara görə, son aylarda AB ölkələrinin səfirləri Bakıda müxalifət təmsilçiləri ilə keçirdikləri sıx-sıx görüşlərdə onları seçkiləri boykot etmənin daha uyğun olduğuna inandırmağa çalışıblar. Mümkündür ki, müxalifətin böyük ölçüdə parlament seçkilərinə qatılmaqdan imtina etməsi və beynəlxalq qurumların seçkilərdə müşahidə missiyası göndərməməsi son nəticədə parlamentin Avropa qurumları tərəfindən tanınması və beynəlxalq qurumlarda iştirakı məsələsini sual altında qoyacaq.

Avropanın sərt davranışı bir gündə ortaya çıxmayıb və uzun bir mərhələnin nəticəsidir. Ancaq hadisələrin məhz bu dövrə təsadüf etməsinin alt qatında başqa amillər yatır. Qərb Bakının Rusiya ilə sürətli yaxınlaşmasından narahatdır, onu bu şəkildə cəzalandırmağa çalışır. Sadəcə, Azərbaycanda siyasi qüvvələr pərən-pərən salındığı üçün hələlik Bakı küçələrində Makedoniyada və ya hazırda Moldovada olduğu kimi güclü aksiyalar keçirilmir.

Lakin AP-nin bu qərarı istənilən ölkədə qərbyönlü siyasi qüvvələr üçün hərəkətə keçmək üçün ciddi siqnal hesab olunur. Bu mənada AP-nin qətnaməsinin səs-küyünün Azərbaycanda hələ uzun müddət davam edəcəyi, hakimiyyət üçün kabus olacağı aydındır. Görünən odur ki, təhlükənin miqyasını hakimiyyət də anlayır. Sərt çıxışlar, etirazlar, nifrət çağırışları bunu deməyə əsas verir.

Görünən həm də odur ki, 10-15 il əvvəl Belarus lideri Aleksandr Lukaşenkoya qarşı həyata keçirilən taktika indi Azərbaycan hakimiyyətinə qarşı tətbiq olunur. İndi hakimiyyətin qarşısında iki yol qalır, ya Avropa ilə dil tapıb anlaşma (bu çox çətindir), ya da daha da özünə qapanma və Rusiya ilə yaxınlaşma. Ancaq ikinci variantda Bakının Rusiyadan nə qədər dəstək ala biləcəyi, öz gücü ilə nə qədər ayaqda qala biləcəyi aydın deyil.

Əslində baş verənlər hay-küylü görünsə də, gözlənilməz hadisə də deyil. Artıq uzun illərdir ki, proseslərin bu mərhələyə gəlib çatacağını deyən ekspert və siyasətçilər vardı. Bakının Qərb tənqidlərini qulaqardı eləməsi, Rusiya ilə həddən artıq yaxınlaşma, nəhayət, enerji bazarındakı sönüklük, İranın Qərblə anlaşması Azərbaycan üçün xəbərdarlıq idi. Hazırkı enerji bazarını göz önünə alanda Bakı artıq Avropa üçün enerji məsələlərində də vazkeçilməz deyil.

Beləliklə, Azərbaycan üçün gözlənilən mürəkkəb dönəm artıq başlamış sayıla bilər. Oyuna hazırıqmı?

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015

# Bu gündən dünyada miqrantlarla bağlı sərt qadağalar qüvvəyə minir

## Macarıstan qaçqınlara münasibətdə sınaqdan çıxmadı, bəs digərləri?

**Avropaya üz tutan qaçqınlarla bağlı durum ciddiyyətini qoruyur. "Hansı ölkə sınaqdan necə çıxdı..." deyə o məşhur sualı vermək istəməsək də, faktlar öz sözünü deyir. Belə ki, sentyabrın 15-dən etibarən Macarıstan sərhədləri miqrantların üzünə bağlı olacaq. Hazırda qaçqınlar Macarıstan sərhədlərini maneəsiz keçə bilirlər. Lakin Macarıstan hökumətinin rəsmi nümayəndəsi Zoltan Dəmirçininn sözlərinə əsasən, sentyabrın 15-dən Serbiyadan Macarıstana artıq bir miqrant belə buraxılmayacaq.**

Zolton Dəmirçi deyir ki, "indi qaçqınlar sərhədi istədikləri vaxt keçə bilirlər. Hər gün Avropa Birliyi ölkələrinə üç min insan daxil olur. Onlar əvvəlcə polisin müvəqqəti miqrasiya məntəqəsinə, oradan sonra isə qaçqınlar üçün nəzərdə tutulan düşərgəyə gedirlər".

"Miqrantlarla bağlı yeni hüquq layihəsi sentyabrın 15-dən etibarən tətbiq olunacaq. Sərhəddən keçən qeyri-leqal insanlar cinayətə cəlb olunacaq. Bundan başqa, sərhəd divarlarına ziyan vuran qaçqınlara qarşı da xüsusi tədbirlər nəzərdə tutulur", - deyə spiker əlavə edib.

Hökumətin rəsmi nümayəndəsinin sözlərinə görə, yeni hazırlanan qanun layihəsindən başqa, sərhədi qorumaq üçün bu işə xüsusi gücləndirilmiş polislər cəlb olunacaq. Əsgərlərdə silah olacaq və onlar həyatları təhlükə altına düşərsə, silahdan istifadə etmək hüququna da malik olacaqlar.

2015-ci ilin əvvəlindən bu günə qədər Avropa Birliyi ərazisinə təxminən 350 min miqrant gəlib. Lakin onların sıralarına hər gün minlərlə qaçqın da qatılır. Avropa Komissiyası bilidirir ki, bu gün yaşanan miqrasiya böhranı, İkinci Dünya müharibəsi zamanı yaşanan böhrandan daha dərindir.

Avropa Komissiyasının nümayəndəsi Aleksandr Vintersteyn onu da bildirib ki, komissiya fonddan miqrasiya böhranı ilə əlaqədar Avstriyaya 4 milyon, Macarıstana isə 5 milyon avro ayırıb.

Bu ilin sentyabrın 2-də isə Almaniya və digər Qərbi Avropa ölkələrində sığınacaq axtarmaq istəyən minlərlə miqrant Budapeştin əsas dəmiryol vağzalı ətrafında etiraz aksiyası keçirirlər. Belə ki, polis sentyabrın 1-də Qərbi Almaniya və Avstriyaya getmək istəyən 2 minə yaxın qaçqını vağzaldan çıxarıb və miqrantlar bundan sonra stansiyanın ətrafında etiraz aksiyası keçirirlər.

**Hökumətin sözçüsü miqrantların buraxılıb-buraxılmayacağı barədə sualı cavablandırarkən bildirib ki, Avropa Birliyinin qanunlarına əməl olunmalıdır.**

"Qanunsuz miqrantlar Avropa Birliyi ərazisində səfəri yalnız qanuni sənədlər və birliyin qanunları çərçivəsində davam etdirə bilərlər"-deyə o vurğulayıb.

Avropa Birliyi ölkələri Suriya, İraq, Əfqanıstan və digər Şərq ölkələrindən böyük qaçqın axını ilə üzləşib. Təkcə avqustda Macarıstana 50 min qaçqın gəlib. Onların əksəriyyəti Qərbi Avropa ölkələrinə keçməyə can atırlar.

Slovakiya Avropa İttifaqının (Aİ) yerləşdirmə proqramı çərçivəsində Suriyadan yalnız xristian qaçqınları qəbul edə biləcəyini açıqlayıb.

**Rəsmi məlumatlar isə göstərir ki, bu ölkə Aİ-nin yeni "40 min nəfər qaçqını yerləşdirmə planı" çərçivəsində Türkiyə, İtaliya və Yunanıstandakı düşərgələrdən yalnız 200 nəfəri və xristian olanları qəbul edəcəyini deyib. Slovakiya Daxili İşlər Nazirliyinin sözçüsü İvan Netik BBC-yə açıqlayıb ki, ölkəsi müsəlmanları qəbul etməyəvək. İ. Netik bunu onların Slovakiyada "özlərini vətənlərindəki kimi hiss etməyəcəkləri" ilə əsaslandırıb:** "Biz yalnız tranzit ölkəyik və insanlar Slovakiyada qalmaq istəmirlər. Biz 800 müsəlman qəbul edə bilərik, lakin bizim Slovakiyada heç bir məscidimiz yoxdur və onlar toplaşmaq istəsələr, bunu necə edəcəklər?"

**Aİ sözçüsü Anika Breyzhard Slovakiya rəsmisinin açıqlamasına münasibət bildirməkdən imtina edib. O qeyd edib ki, Avropa İttifaqı ölkələrinə istənilən növ ayrı-seçkilik nümayiş etdirmək qadağan edilib. Eyni zamanda BMT Qaçqınlarla iş üzrə Ali Komissarlığının Mərkəzi Avropa üzrə sözçüsü Babar Baloç bildirib ki, yerləşdirmə dünyanın ən həssas qrupları arasında son dərəcədə çətin vəziyyətdə olan qaçqınlar üçün çox vacibdir:** "Biz ölkələri qaçqınları yerləşdirilməsi məsələsinə kompleks yanaşma nümayiş etdirməyə və öz seçimlərin ayrı-seçkiliyə yol verməməyə çağırırıq".

Qeyd edək ki, Aİ sərhədlərində son aylar qaçqınlar daha da artıb. İyul ayında bu rəqəm rekord səviyyəyə- 107 500 nəfərə çatıb. Onların əksəriyyəti suriyalılar, əfqanlar, qeyri-stabillik və yoxsulluqdan əziyyət çəkən Tropik Afrika sakinləridir. Ötən ay Aİ ölkələri son iki ildə İtaliya və Yunanıstana gəlmiş 32 min sığınacaq axtaran şəxsi qəbul etmək barədə qərar qəbul edib. Slovakiya kimi ölkələr müəyyən edilmiş kvotadan imtina etdikdən sonra proqram könüllülük şəklində həyata keçirilib.

Xatırladaq ki, 240 min miqrant bu il ərzində Aralıq dənizini keçib və digər ölkələrə getməzdən qabaq İtaliya və Yunanıstan sahillərinə çatıb.

Macarıstanın miqrantların hərəkətinə məhdudiyyəti yüngülləşdirməsinin ardından, yüzlərlə miqrant Almaniyaya doğru Avstriya vasitəsilə yollarına davam edir.

Bazar günü səhəri Münhen dəmiryol vağzalına bir neçə qatar gəlib. Bir çox miqrant isə qeydiyyatdan keçmək üçün Almaniyanın başqa şəhərlərinə gedir.

Yüzlərlə miqrant həmçinin Avstriyanın Macarıstanla sərhədindən qatarla Vyanaya gedir.

Alman və avstriyalı fəalların idarə etdiyi maşın konvoyu Macarıstana keçərək miqrantların Qərbi Avropaya çatmasına kömək edir.

Roma papası bildirib ki, Avropadakı hər bir Katolik kilsəsi miqrant ailəsini qəbul etməlidir.

Papa Francis bildirib ki, bəşəriyyət "ölümdən qaçan" və "daha yaxşı həyat üçün müharibə və aclıqdan yaxa qurtarmış" insanlara kömək etməlidir. Şənbə günü əsasən Suriyadan olan miqrantlar avtobusla, qatarla və piyada əvvəlcə Avstriya ilə sərhədə, oradansa Vyana, Münhen və digər Almaniya şəhərlərinə səyahət edib.



Avstriya və Almaniya axının öhdəsindən gəlmək üçün miqrantları daha çox qatarla təmin edir. Günlərlə davam etmiş qarşıdurma və xaosun ardından, Macarıstan Avstriya ilə sərhədini açaraq minlərlə miqrantı ora daşıyıb.

Budapeştdə qatarlara minməsinin qarşısı alınmış bir çox miqrant avtomobil yolu ilə Avstriya sərhədinə doğru piyada yeriməyə başlayıb. Təxminən 48 saat içində 10 minə qədər miqrant Avstriya ilə sərhədi keçib. Avstriya rəsmiləri daxil olanların qarşısını almaq niyyətində olmadıqlarını deyiblər.

Təxminən 1000 nəfər şənbə gecəni Avstriya tərəfdə, açıq havada keçirməli olub, rəsmilər deyir. Avstriyaya çatmış miqrantlardan bir çoxu birbaşa Almaniyanın Münhen şəhərinə gedib. Orada yerlilər miqrantları alqışlarla qarşılayıb və miqrantların arasındakı uşaqlara şirniyyat veriblər. Şənbə günü Münhen stansiyasına təxminən 7000 miqrant gəlib, polis bildirir.

Onlar qeydiyyata alınmaq, yemək və paltarla təmin olunmaq üçün Almaniyadakı müxtəlif qəbul məntəqələrinə göndərilib.

Miqrantlardan bir çoxu Macarıstana çatmaq üçün Balkan ölkələrindən keçməli olub. Təkcə Macarıstanın içində 200-300 arası miqrant qeydiyyatdan imtina edərək Almaniyaya getmələrinə icazənin verilməsini tələb ediblər, Macarıstan mətbuatı xəbər verir. Həm Almaniya, həm də Macarıstan bildirib ki, görülən tədbirlər humanitar böhranın qarşısının alınmasına yönəlib.

Almaniyada isə bu məsələ ilə bağlı hələ konkret bir mövqe yoxdur. Almaniya kansleri Angela Merkel bildirib ki, Almaniya yeni miqrant axınının öhdəsindən gələ bilər, lakin onun koalisiya hökuməti tərkibində məsələ ilə bağlı fikir ayrılığı mövcuddur.

Bəzi sağçıların fikrincə, bu qədər miqrantın qəbul edilməsi yanlış mesaj verir, lakin sosial demokratlar bu addımı alqışlayıb.

Avropadakı miqrantların əsas hədəfi Almaniyaya çatmaqdı və ölkənin bu il 800 min insanı qəbul edəcəyi gözlənilir.

Vətəndaş müharibəsindən yaxa qurtaran suriyalılar səyahət edən ən böyük qrupdur. Bundan sonra isə əfqanlar və eritreyalılar gəlir.

2015-ci ildə 350 mindən çox miqrant Avropa İttifaqı sərhədlərini keçib.

Avropaya keçməyə çalışan müsəlman miqrantlar xristianlığı qəbul edərək, Almaniyadan sığınacaq alma şanslarını artırmağa çalışırlar.

Yunanıstan sahillərində də müsəlman ölkələrindən minlərlə miqrant toplaşıb. Avropa liderləri hələ də Avropaya keçməyə çalışan miqrantlara necə yardım ediləcəyi haqqında açıqlama vermirlər. BMT isə Avropa sahillərinə indiyə qədər 400 min miqrantın gəldiyi haqqında proqnoz yayıb. Təşkilat 2016-cı ilə qədər bu rəqəmin 850 min nəfərə çatacağını bəyan edib.

Bu il Avropaya 430000-dən çox mühacir gəlib.

Son həftə sonu Niderland Krallığına müraciət edənlərin sayı 3100 civarında olub. Şənbə günündən bazar gününə keçən gecə 600 nəfər ölkənin bir neçə qəbul ofislərindən tək birinə müraciət edib.

Amma Avropanın sıradan insanları miqrantlara münasibətdə daha tolerantdılar. Uzaqdan soyuq, praqmatik, yadlara qarşı məsafəli görünən qərblilərin miqrantlarla bağlı mövqeyi, tutumu daha isti olub.

❑ **Sevinc TELMANQIZI**

# "Suriyalı qaçqınlar Azərbaycana axışacaq"

**Rusiya Dövlət Dumasında LDPR (Rusiya Liberal-Demokrat Partiyası) fraksiyasının rəhbəri, partiya sədri Vladimir Jirinovski Suriyada Bəşər Əsəd rejiminin süqutuna hansı səbəblərdən yol verilməməli olduğunu açıqlayıb.**

Bu barədə LDPR-in rəsmi saytında xəbər verilir.

Məlumata görə, Jirinovski hazırda iqtisadi müharibənin getdiyini, ancaq neft hasil edən ölkələrin bombalandığını bildirib: "Liviya neft deməkdir, İraq neft deməkdir, Suriya neft deməkdir. Harada neft və qaz yoxdursa, orada sakitlikdir.

Suriya əsas mövqe tutur. Yeni qaz və neft kəmərləri bu ölkədən keçməklə Türkiyəyə, oradan isə Avropaya çəkiləcək. Suriya mane olur. Türkiyə ucuz neft və qazda maraqlıdır, o, tranzitçi olacaq. Qətər və Səudiyyə Ərəbistanı isə Avropaya qaz tədarük edəcəklər, çünki dəniz nəqliyyatı ilə çətindir".

**Jirinovskinin sözlərinə görə, əgər Suriya Əsəd rejiminin süqutundan sonra dağılarsa, İrana qarşı müharibə başlayacaq:** "O zaman qaçqınlar Avropaya və cənuba yox, şimala, Azərbaycan, Ermənistan, Gürcüstana, Şimali Qafqaza axın edəcəklər - orada da hər şey dağılacaq. Daha sonra bu dalğa Rostova, Voronejədək çatacaq. Qərbin məqsədi odur ki, dünya böyük müharibə astanasında olsun.

Bunun üçün Yaxın Şərqdə yanğının baş verməsi və milyonlarla qaçqının Avropaya gəlməsi lazımdır. Və qoy avropalılar öz mehmanxana və mənzillərini hazırlasınlar - onlar Yaxın Şərqdən, Afrikadan 200-300 milyon qaçqın qəbul etməlidirlər. O zaman bütün Avropa ölkələrində sağ-radikalçı, nasist, faşist hökumətlər hakimiyyətə gələcək. Britaniya NATO və Avropa İttifaqından çıxacaq.



**Vladimir Jirinovski**

Bax, elə onda Avropada əsl qarışıqlıq başlayacaq. Avropa qalacaq, lakin avropalılar qaçqınlara xidmət edəcəklər".

**Jirinovski bugünkü Suriyanı 1936-cı ilin İspaniyası ilə də müqayisə edib:** "Orada biz İspaniyaya kömək edə bilmədik və hakimiyyətə ispan faşistləri gəldilər".

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015

**Azərbaycanın öz müstəqilliyi tarixində keçirdiyi ən iri təlimlər yekunlaşdı. 65 min nəfərlik şəxsi heyət, 700 zirehli texnika, 500-dən çox raket və artilleriya qurğusu, 40-dək təyyarə, 50-dək helikopter, 20-dək gəmi və katerin cəlb olunduğu bir həftəlik təlimlərdə Silahlı Qüvvələrimizin bütün qoşun növlərinin döyüşə hazırlıq və döyüş qabiliyyəti ən ciddi şəkildə yoxlanıldı.**





# "Bizdə elə silahlar var ki..."

## Azərbaycan öz tarixində ən iri təlimlərini uğurla başa çatdırdı; bu təlimlər Qarabağ məsələsini uzatmağın region və vasitəçi güclərə vəd etdiyi təhlükəni əyani nümayiş etdirdi; müdafiə naziri Zakir Həsənov düşmənə xəbərdarlıq etdi

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ANS telekanalına müsahibəsində təlimlərin yekununu yüksək qiymətləndirərək deyib:** "Bizim keçirdiyimiz son təlimlərin əsas məqsədi - qarşılıqlı fəaliyyət və iştirak, idarəçilikdə bütün qoşun növlərinin birgə fəaliyyətini təşkil etmək, məntəqələrin bütün idarəçilik imkanlarından istifadə etmək idi. Yəni bütün qoşun növlərindən qarşılıqlı istifadə edərək düşməni darmadağın etmək. Bildiyiniz kimi, biz KİV-lərə məlumat vermişdik ki, qoşunların idarəçiliyində əsas məqsəd qoşunların idarəçiliyi və əks hücumun dəf olunması, düşməni mühasirəyə götürüb, darmadağın etmək olub. Qeyd edim ki, təlimlər zamanı yaranan nöqsanlar artıq yox edilib. Prezidentin diqqət və qayğısı nəticəsində əldə etdiyimiz avadanlıq bizə imkan verir ki, idarəçiliyi daha yüksək səviyyədə təşkil edək. Hətta burada avtomatlaşdırılmış sistemlər, yeni proqramlar tətbiq olunur. Bu avadanlıqlar bizdə şərait yaradır ki, hadisələri qısa müddətdə təhlil edək və düzgün qərar qəbul edək".

**Bu xüsusda nazir onu da etiraf edib ki, hərbi təlimlərdə ilk dəfə elə silahdan istifadə olunub ki, indiyədək istifadə edilməyib və Azərbaycan silahlarının "tacı"dır:** "Bizdə belə silah var! Biz bu silahı o təlimlərə cəlb etmişdik. Mən şəxsən o silahın yerləşdiyi mövqedə olmuşam. Onun döyüşə hazırlıq vəziyyəti ilə yaxından tanış oldum. Şəxsi heyət qısa zamanda bu silahın sirlərini mənimsəyib və yaxşı nəticələr göstərdiyini sübut edib".

***

Azərbaycan son təlimləri ilə sözsüz ki, bir daha işğalçı Ermənistana, onun havadarlarına mesaj vermiş oldu ki, təcavüzkar uzun illər torpaqlarımızda rahat otura bilməyəcək və gec-tez ərazilərimizi boşaltmalı olacaq. Əks təqdirdə, düşmən Azərbaycanın öhdəsindəki ən müasir silahların tətbiqi də daxil, güc tətbiqi ilə üzləşəcək.

Doğrudur, hələ ki rəsmi Bakı əlverişli şərtlər yetişənədək müharibə variantını ehtiyatda saxlayır. Çünki burada proqnoza yatmayan Rusiya amili həlledici rol oynayır. Rusiya isə...

**"Rusiyaya Cənubi Qafqazda müharibə lazım deyil". Bu sözləri rusiyalı politoloq Konstantin Kalaçev mediaya açıqlamasında söyləyib. Onun sözlərinə görə, Moskvaya yalnız özünün Cənubi Qafqazdakı maraqları vacibdir.**

**Sitat:** "Hər kəs bu hadisələri arzuladığı kimi görmək istəyəcək. Ermənilər Putinin dislokasiya problemini həll etdiyini düşünəcək, azərbaycanlılar isə Rusiyanın Ermənistana təzyiq edəcəyi ilə bağlı şayiələri müzakirə edəcəklər. Nəticədə isə hər şey əvvəlki kimi qalacaq. Rusiya öz maraqları çərçivəsində hansısa sonuncu seçimi etməyə hazır deyil. Moskva üçün Ermənistan strateji müttəfiq, Azərbaycan isə strateji tərəfdaşdır. Moskvanın öz maraqları var və o öz maraqlarını Cənubi Qafqazda kifayət qədər uğurla reallaşdırır. Rusiyanın hərbi sənaye kompleksləri Azərbaycan və Ermənistanın sifarişlərini icra edir. Lakin müharibə olmayacaq. Rusiyaya bu, konflikt tərəflərinə gərək olmadığı kimi, lazım deyil. Diplomatik razılaşmaya doğru uzun bir yol olacaq. Hərəkət var, amma onun son məqsədi yaxınlarda olmayacaq".

Xatırladaq ki, bir müddət öncə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Bakıya səfər etmişdi. Bunun ardınca Ermənistan prezidenti Serj Sərkisyan Moskvaya gedərək Vladimir Putinlə görüşdü. Görüşdə tərəflər arasında müzakirə mövzularından biri Qarabağ konflikti oldu. Görüşü şərh edən bəzi ekspertlər Moskvanın İrəvana Qarabağın Azərbaycana qaytarılması ilə bağlı təzyiq edəcəyini təxmin eləmişdilər.

***

Lakin hələ ki Qarabağ "yükü" 21 il öncə harada idisə, orada da qalır. Bu günə nə Rusiya, nə də ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkələri - ABŞ və Fransa 21 illik danışıqlarla məsələdə heç bir irəliləyişə nail ola bilməyib. Səbəb gizli deyil: biri - Rusiya sülhü, sadəcə, arzulamayıb, digərləri - ABŞ və Fransa isə bacarmayıb.

**Amerikalı vasitəçi Ceyms Uorlik isə hələ də ümidini itirməyib. "Amerikanın səsi" radiosuna müsahibəsində o, artıq Qarabağ münaqişəsində sülhə nail olmağın vaxtı çatdığını bildirib:** "Əgər biz problemin həllinə nail ola bilsək, onda xalqlar bölgənin necə dəyişəcəyini görəcəklər".

**Diplomat ilin sonunadək Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil edəcəklərinə ümid bəslədiklərini də söyləyib:** "İki ölkənin xarici işlər nazirlərinin Nyu-Yorkda keçiriləcək görüşündə biz görüşün gündəliyi, vaxtı və yerini müəyyən etməyə çalışacağıq".

***

**Bu arada Ukraynanın sabiq prezidenti, rəsmi Kiyevin Minsk təmas qrupundakı nümayəndəsi Leonid Kuçma maraqlı açıqlama ilə çıxış edib. O, Donbası Qarabağla müqayisə edib. Musavat.com xarici qaynağa istinadən xəbər verir ki, Kuçma deyib:** "Donbas məsələsi Qarabağ və ya Cənubi Osetiya məsələsi kimi dondurulmuş münaqişə vəziyyətinə gətiriləcək".

**Onun qənaətincə, bənzər konfliktli situasiyalar artıq tarixdə olub, fəqət, onların çoxunu sonadək həll eləmək mümkün olmayıb.** "Nə qədər müxtəlif səviyyələrdə komissiyalar yaradılıb, di gəl həll olmayıb. Deyəsən, dünya da problemlərin bu vəziyyəti ilə barışıb - Gürcüstanda, Moldovada, Azərbaycanda" - qeyd edib keçmiş prezident.

Kuçma onu da bildirib ki, Donbasın Dağlıq Qarabağ, Abxaziya, Cənubu Osetiya, Dnestryanı bölgə ilə yanaşı duracağının əlamətlərindən biri odur ki, dünya Ukraynanın cənub-şərqindəki hadisələrə marağını itirməkdədir.

Oxşar münasibət şəksiz ki, Qarabağ məsələsi ilə bağlı mövcuddur. Kuçmanın vurğuladığı kimi, sanki dünya Dağlıq Qarabağ probleminin hazırkı vəziyyəti ilə barışıb. Ancaq nə vaxtadək? Axı sadalanan münaqişələrin hamısı özündə bütöv bölgələri xaosa sürükləyə biləcək "gec partlayan bomba" effektini daşıyır.

Hələ ki bu "bombaları" zərərsizləşdirmək üçün vaxt var.



Firudin Sinirlioğlu

# Türkiyənin yeni xarici işlər naziri Bakıya gəlir

## Əsas müzakirə mövzularından biri Qarabağ olacaq...

**Bu gün Türkiyənin yeni xarici işlər naziri Firudin Sinirlioğlu sentyabrın Azərbaycanda rəsmi səfərdə olacaq. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb.**

İki gün çəkəcək səfər çərçivəsində F. Sinirlioğlu Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarovla görüşəcək. Görüş zamanı iki ölkə arasında gündəmə dair məsələlər, regionda və dünyada baş verən hadisələr, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunacaq.

Türkiyə XİN rəhbərinin prezident İlham Əliyev və baş nazir Artur Rəsizadə ilə görüşü də nəzərdə tutulub.

YENİ MÜSAVAT
N 204 (6232) 15 sentyabr 2015

# Qazaxda məmurla vətəndaş arasında elektrik gərginliyi

## Rayon sakini elektrik şəbəkəsinin müdirini ittiham edir, qarşı tərəf isə onu "böhtançı" adlandırır

**Qazax rayonunun Canalı kənd sakini Kamal Qasımov «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti (ASC) Qazax elektrik şəbəkəsinin müdiri Elşad Məmmədovdan şikayətçidir.**

Üç ay yarımdan çoxdur işıqsız qalan Kamal Qasımov lazımi instansiyalardan kömək ala bilmədiyi üçün "Yeni Müsavat" qəzetinə üz tutaraq məsələni ictimailəşdirmək istəyir.

**Şikayətçinin sözlərinə görə, Qazax Elektrik Şəbəkəsi tərəfindən heç bir yoxlama aparılmadan və sayğacdan kənar xətt aşkarlanmadan ona 777 manat 60 qəpik debitor borc yazıblar. K.Qasımov bildirib ki, elə bu hadisədən sonra onun işığı kəsilib. Nəticədə isə onların ailəsi çətin vəziyyətdə qalıb və hətta bir üzvünü də itirib. Şikayətçi hadisəni daha geniş formada bu cür ifadə etdi:**



Kamal Qasımov

"Toyda olduğum zaman məni çağırdılar ki, sənin evinə sayğacdan əlavə xətt gedir. Buna görə də işıqlarınız kəsiləcək və cərimələnəcəksən. Gəldim evə. Qazax Elektrik Şəbəkəsinin müdiri Elşad Məmmədov mənə dedi ki, sən qeyri-qanuni formada işıqdan istifadə edirsən. Gəl əlavə xəttini göstər, yoxsa briqada çağıracam. Onlar isə bu xətti tapsalar, səni beş min manat cərimələyəcəklər. Mən isə ona dedim ki, briqadanı göndər yoxlasınlar. Çünki əlavə xəttim yox idi. Dedim, əgər qeyri-qanuni xətt aşkar olunsa, canla-başla onun cəriməsini ödəməyə hazıram. Bir həftə sonra özünü Gəncə Regional Elektrik Şəbəkəsinin işçisi kimi təqdim edən bir şəxs gəldi. O da mənimlə görüşərək söylədi ki, sizdə qeyri-qanuni xətt olduğu haqda bizə məlumat verilib. Ona görə gəlmişik. Dedim, gəlin yoxlayın. O isə dedi ki, yoxlamaq lazım deyil. Hadisə necə baş veribsə, yaz. Mən də olduğu kimi yazdım. Sonra o heç bir söz demədən çıxıb getdi. Həmin hadisədən təxminən 3-4 gün sonra Qazax Elektrik Şəbəkəsinin işçiləri gələrək, mənə 777.60 *(yeddi yüz yetmiş yeddi manat altmış qəpik)* debitor borc kağızını təqdim etdilər. Söylədilər ki, bu kağıza qol çəkməliyəm. Borc ödənmədiyi təqdirdə elektrik kəsiləcək. Mən isə heç bir qeyri-qanuni əməlim olmadığını əsas gətirərək, kağıza qol çəkmədim. Elə həmin vaxtdan, yəni bu ilin 16 uyun tarixindən mənzilimə gələn elektrik xətti kəsildi. Lakin bir daha qeyd edirəm ki, sayğacdan əlavə xətt tutduqlarını söyləsələr də, bununla bağlı heç bir sübut yoxdur".

**K.Qasımov bildirib ki, elektrik şəbəkəsinin işçiləri bildirirlər ki, sayğaca gələn xətt 100 metr üzəri izolyasiya ilə örtülmüş naqillərlə gəlir. Əlavə naqil də guya buradan qoşulub:**

"Bu məsələ ilə bağlı çoxsaylı qurumlara şikayət ərizəsi yazdım. Bu ilin 2 iyul tarixində Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsi mənə məktub ünvanladı ki, adını cərimə qoyduqları borcu azaldaraq, 129 manat 60 qəpik ediblər. Söylədilər ki, bu borc hissə-hissə ödəniləcəksə, o zaman elektrik xətti bərpa olunacaq. Ödəmədiyim üçün xətti bərpa etmədilər. Elektrik xətti olmadığı üçün evimizdə şəraitsizlik yarandı. İstilərdən nəfəs ala bilməyən, himayəmdə olan qayınanam dünyasını dəyişdi. O öləndə də "işıq" deyə-deyə dünyasını dəyişdi. Evimdə olan soyuducu və digər elektrik əşyaları uzun müddətdir işləmədiyi üçün sıradan çıxıb. Hələ də mənzilimə elektrik gəlmir. Vəziyyətimiz getdikcə çətinləşir".

**Qarşı tərəfin mövqeyini öyrənmək üçün Qazax Rayon Elektrik Şəbəkəsinin müdiri, yazıda adı hallanan Elşad Məmmədovla əlaqə saxladıq. E.Məmmədov bildirdi ki, Kamal Qasımovun məsələ ilə bağlı söylədiyi fikirlər yalandır:**

"O, böhtançı və şərçi insandır. Onun borcu 129 manat 60 qəpikdir. Əlavə elektrik xətti çəkməsi sübut olunub. Hələ bunun şəkili də çəkilib. Bütün sənədlər bizdədir. Həyətinə getmişdik. Bizi söyüb təhqir elədi. Bu adam yalan danışır. Əlimizdə sənədlər və sübut var. Biz qanunsuz olaraq heç zaman heç kimə akt yazmarıq. O, qanunu pozduğu üçün barəsində akt tərtib olunub və elektrik xətti kəsilib".

❑ **Əli RƏİS**




# Sumqayıt sakinləri üçün vacib xəbər - sərnişinlər oxusun!

**Bakı - Sumqayıt elektrik qatarının istismara verilməsi ilə əlaqədar Nəqliyyat Nazirliyi Dövlət Avtomobil Nəqliyyatı Xidməti Sumqayıt şəhərində sərnişindaşıma xidmətlərinin yüksək səviyyədə təşkili məqsədilə operativ tədbirlər həyata keçirib.**

Bu barədə Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin mətbuat katibi Şəfa Mehmanqızı musavat.com-a məlumat verib. Məlumatda deyilir ki, tərtib olunmuş proqram əsasında dəmir yolu yaxınlığından keçən şəhərdaxili marşrutların bir neçəsinin hərəkət sxemində dəyişikliklər olunub. Sumqayıt şəhərində Koroğlu prospekti ilə hərəkət edən 5, 7, 7a, 10, 25, 30 və 39 saylı marşrut avtobusları Üzeyir Hacıbəyli küçəsindən dəmir yolu stansiyasına dönərək sərnişinlərin daşınmasını təmin edəcək. Sərnişinlər rahat və maneəsiz, vaxt itirmədən dəmir yolu stansiyasına gələ biləcəklər. Həmçinin hazırda bu ərazidə avtobusların dayanacaq yerləri üçün xüsusi ciblər və sərnişinlər üçün piyada keçidləri çəkilir. Sərnişinlərə nümunəvi xidmət göstərmək məqsədilə Dövlət Avtomobil Nəqliyyat Xidməti tərəfindən mütəmadi olaraq bu kimi tədbirlər həyata keçirilməkdədir.

❑ **Cavid TURAN**

# Ermənilərlə azərbaycanlılar arasında kütləvi dava: 1 həmyerlimiz öldü

**Rusiyanın Volqoqrad şəhərində qafqazlılar arasında kütləvi dava olub. BAKU.WS-in Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, dava Kiyevski rayonunda yerləşən "Bariton" barında olub.**

Dava barın sahibi, milliyyətcə erməni olan 34 yaşlı kişi ilə 24 yaşlı azərbaycanlı gənc arasında yaranıb. Dava zamanı bar sahibi ov silahı ilə oğlanı yaralayıb. Davaya gəncin dostları da qoşulublar. Bu zaman bar sahibinin adamları da onlarla əlbəyaxa olublar.

Boyun nahiyəsindən yaralanan gənci dostları xəstəxanaya aparıblar. Lakin barın sahibi öz adamalarını ətrafına yığaraq azərbaycanlıların olduğu maşını təqib etməyə başlayıblar. Gəncin yaralı olduğu maşını 4 avtomobil təqib edib. Xəstəxanaya aparılarkən yaralı gənc yolda dünyasını dəyişib.

Hadisə yerinə gələn polis barın sahibini və onunla birlikdə bir neçə ermənini saxlayıb. Faktla bağlı Rusiya Daxili İşlər Nazirliyində cinayət işi başlanıb, araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**



# "Təmiz Binəqədi"nin böyük pullar hesabına tikilən "təpəsi" sökülür

## "Azəryolservis" rəsmisi: "Bu istiqamətdə işlər davam etdiriləcək..."



**"Təmiz Binəqədi" layihəsi çərçivəsində tikilən növbəti süni təpə də sökülür. Yada salaq ki, 2014-cü ildən etibarən Binəqədi rayonu ərazisində mərhələli şəkildə "Təmiz Binəqədi" layihəsinin həyata keçirilməsinə başlanılıb. Bunun üçün büdcədən xeyli vəsait də ayrılıb.**

Vəsaitin bir qismi isə Binəqədi rayonunda Sumqayıt istiqamətinə gedən magistral yolun kənarında ucaldılan süni təpələrə və bu təpələrin üzərində güllərdən buta rəsmi, "Binəqədi rayonu" kimi sözlərin yazılmasına sərf edilib.

Bu ilin fevral ayında həmin təpələrdən biri sökülüb. Səbəb kimi əsas gətirildi ki, təpə yolda avtomobillərin hərəkətinə mane olur. İndi isə üzərinə "Binəqədi rayonu" yazılan təpənin söküntüsünə başlanılıb. Musavat.com-un məlumatına görə, artıq təpə demək olar ki, tam şəkildə sökülüb. Ərazidə qoyulan xəbərdarlıq lövhəsinə görə, söküntü Nəqliyyat Nazirliyi və "Azəryolservis" Açıq Səhimdar Cəmiyyəti (ASC) tərəfindən aparılır. Orada işləyən fəhlələr bildirdilər ki, hazırda söküntüdə fasilə yaranıb. Bunun isə səbəbi təpələrin altından keçən su və kanalizasiya xətləridir.

Binəqədi sakinlərinin dediyinə görə, onsuz da "Təmiz Binəqədi" layihəsi çərçivəsində qurulan bu təpələrin onlar üçün heç bir əhəmiyyəti yox idi. Çünki təpələr kənardan gözəl görünsə də, arxasında natəmizlik hökm sürürdü. Onu da qeyd edək ki, elə hazırda sökülən təpənin tam arxasında zibil qutuları qoyulub. Əhalinin isə zibilləri qutuya deyil, ətrafa atması, orada zibilliklə bərabər, pis qoxunun da yaranmasına səbəb olub.

Məsələdə maraqlı məqam həm də odur ki, təpələr tikilən zaman buna heç bir reaksiya verməyən "Azəryolservis" ASC indi hesab edir ki, bu tikililər magistral yolun daralmasına səbəb olur və sökülməlidir. Bununla bağlı musavat.com-a danışan **"Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli** təpələrin sökülməsi səbəbini və bundan sonra hansı yollarda genişlənmə işlərinin aparılacağını açıqlayıb.

**Qurum rəsmisinin sözlərinə görə, təpələrin tikintisini onlar aparmayıblar:** "Bilirsiniz ki, Bakı şəhəri üzrə hazırda tıxacların aradan qaldırılması istiqamətində ayrı-ayrı qurumlar tərəfindən müəyyən addımlar atılır. O cümlədən Nəqliyyat Nazirliyi "Azəryoslervis" ASC tərəfindən bu kimi tədbirlər həyata keçirilməkdədir. Nəzərdə tutulan söküntü işi həmin istiqamətdə yaranan tıxacların qarşısını almağa yönəlib. Orada təxminən 100 metr uzunluğunda təpə sökülür. Söküntü nəticəsində yol təxminən 4 metr genişlənəcək. Qeyd edim ki, bundan öncə tıxacın qarşısını almaq üçün Sulutəpə dairəsində nəqliyyat vasitələrinin hərəkətində müəyyən dəyişikliklər edildi. Babək prospektində Nəcəfqulu Rəfiylə kəsişmədə yerləşən dairəyə çatmamış, geri dönmə üçün yeni yol hissəsi salındı ki, dairədə tıxac baş verməsin. Bundan sonra Xətai prospekti ilə Heydər Əliyev prospektlərinin kəsişməsində yerləşən yol ötürücüsünün alt hissəsində də analoji işlər aparılacaq. Bu istiqamətdə nəqliyyatın sıxlığını aradan qaldırmaq məqsədilə Qələbə dairəsində, 20 Yanvar dairəsində, Statistika Komitəsinin önündə yerləşən dairədə nəqliyyat vasitələrinin hərəkətində də müəyyən dəyişikliklər olunub".

A.Nəcəflinin sözlərinə görə, nəqliyyatın sıxlığını aradan qaldırmaq məqsədilə Nəqliyyat Nazirliyi "Azəryoslervis" ASC tərəfindən bu istiqamətdə işlər davam etdiriləcək. Eyni zamanda onun sözlərindən aydın oldu ki, təpələrin söküldüyü yerdə dayanacaqların da qoyulması nəzərdə tutulub. Onu da qeyd edək ki, ərazidə piyada keçidi olsa da, heç bir dayanacaq mövcud deyil. İnsanlar oradan keçən avtobuslara minmək üçün avtomobillərin sürətlə keçdiyi yolun kənarında dayanırlar ki, bu da təhlükəsizlik baxımından doğru deyil.





azərişıq

QƏRB REGIONAL ENERJI TƏCHIZATI VƏ SATIŞI İDARƏSİ

Qazax rayonu, Canalı kənd sakini Kamal Qasımova

Surəti: Qazax rayon prokuroru, baş ədliyyə müşaviri cənab Əlirza Babayevə

Məlumat üçün: Qazax EŞ-nin rəisi E. Məmmədova

Sizin, "Azərişıq"ASC–yə ünvanlanmış (1-Q/223 saylı, 02.07.2015-ci il tarixli) telefonoqramınız araşdırılması və cavablandırılması üçün aidiyyatı üzrə "Qərb" RETS-yə göndərilmişdir.

Məlum olmuşdur ki, 30.03.2015-ci il tarixdə Qazax EŞ-nin əməkdaşları ... yoxlama apararkən Sizin mənzilinizə sayğacdan kənar xəttin daxil olduğunu ... etmişlər. Həmin xətt vasitəsi ilə evinizin işlədiciləri birbaşa şəbəkəyə qoşulmuş... Elektrik Enerjisindən İstifadə Qaydalarının 8.32 bəndinə ... mənzilinizə 101034 saylı akt tərtib edilmişdir. ...

**Bu problemlə də bağlı Anar Nəcəfli bildirib ki, "Azəryolservis" ASC tərəfindən şimal və cənub istiqamətlərindən gələn avtonəqliyyat vasitələri üçün "VAZ yol qovşağı" adlanan sahədə və Bakı-Ələt yolunun 15-ci kilometrliyində ödənişsiz duracaqların təşkili məqsədilə tikinti işləri aparılıb:** "VAZ yol qovşağı" adlanan sahədə yaradılan ödənişsiz duracağa giriş-çıxışı təmin etmək məqsədi ilə Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC tərəfindən 280 metr uzunluğunda 12 metr enində yeni yol tikilib. Bakı-Ələt yolunun 15 km-də yaradılan ödənişsiz duracağa giriş-çıxış məqsədilə isə uzunluğu 700 metr, eni 8 metr olan sürətli keçid zolağı tikilib. Yeni tədris ilinin başlanması nəzərə alınaraq, piyadaların yollardan təhlükəsiz və rahat şəkildə keçməsini təmin etmək məqsədilə Nəqliyyat Nazirliyi "Azəryolservis"ASC tərəfindən xüsusi olaraq məktəblər yerləşən 91 küçə və prospektdə 157 yerdə zebr tipli üfüqi nişanlama xətləri çəkilib. Bundan başqa, Bakı şəhərində 28 küçə və prospektdə 164 avtobus dayanacağında məlumatverici üfüqi nişanlanma xətləri çəkilib. Qısası, görülən bütün tədbirlər sürücülərin və piyadaların rahatlığını təmin etmək məqsədi daşıyır".

❑ **Əli RAİS**

# Yeni tədris ili başladı

## Bəs təhlükəsizlik tədbirləri və yollardakı vəziyyət necə olacaq?



**Bu gün yeni dərs ilinin ilk zəngi çalınacaq. Təhsil Nazirliyinin məlumatına görə, bu il 150 mindən çox şagird birinci sinfə gedəcək. Dərsliklərin böyük hissəsi yeni olacaq.**

Ümumtəhsil məktəblərinin IV, VI və VIII sinifləri üçün 2015-2016-cı tədris ilinə 141 adda 4095370 nüsxə dərslik və müəllim üçün metodik vəsait çap olunub. O cümlədən kurikulum ilk dəfə tətbiq olunan VIII siniflər üçün 70 adda dərslik və müəllim üçün metodik vəsait çap edilib və məktəblərə paylanıb. Əvvəlki illərdə hazırlanması baş tutmamış V sinif "Alman dili" və "Ərəb dili", eləcə də, VII sinif "Fransız dili" dərslik komplektləri də çap prosesindədir və yaxın günlərdə yerlərə göndəriləcək.

Respublikanın Qax, Zaqatala və Balakən rayonlarının gürcü dili tədris olunan məktəbləri üçün I və II sinif dərslikləri gürcü dilinə tərcümə olunub. Yeni tədris ilində ümumtəhsil məktəblərinin I, II, III, V, VII, IX, X və XI sinif şagirdləri əvvəlki illərdə çap olunmuş və məktəb kitabxana fondlarındakı dərsliklər hesabına təmin olunacaqlar. Bundan başqa, bu il 6 və 7-ci siniflər üçün "Biologiya" fənni üzrə elektron dərslik hazırlanıb. Bu vəsait tamamilə yeni olan müasir standartlarla hazırlanmış videolarla zənginləşdirilib. Həmin videoların hamısı dərs formatında komplektləşdirilib.

Məktəb ləvazimatlarını artıq hər kəs alıb yekunlaşdırsa da qiymətlər olduğu kimi qalmaqda idi. Birinci sinfə gedəcək uşaqların müəllimlərinə gül alacağını nəzərə alan gül satıcıları güllərin qiymətini bahalaşdırıblar. Belə ki əvvəl tək bir qızılgülü satıldığı yerdən asılı olaraq 3-4 manat arasında almaq mümkün idi, indi isə 5-6 manata satılır. Buket güllər isə gül seçimindən, buketdən və gülün sayından asılı olaraq 15-80 manat arasında dəyişirdi. Satıcılar da güllərin qiymətini artırdıqlarını etiraf edirdilər. **Gül satıcısı Elvin Məsimov deyir ki, güllərin qiyməti cüzi bahalaşıb:** "Güllərin qiymətinin artması məktəblərin başlaması ilə əlaqədar deyil. Bu güllərin əksəriyyəti xaricdən gətirilir. Oradan da baha aldığımıza görə baha satmağa məcburuq".

**Digər gül satıcısı isə ildə 3 dəfə onların alverinin olduğunu bildirdi və buna görə də onlara irad bildirməməyimizi istədi:** "Başqa vaxt heç kim gül almır. Bir 8 martda, sevgililər günündə, bir də məktəblər başlayan gün güllərimiz satılır. Adi günlərdə bəzən elə olur ki, heç gül satılmır".

Qeyd edək ki, hər il olduğu kimi bu il də şəhərdə sıxlıq yaşanır. Bunun da səbəbi yeni tədris ilinin başlaması ilə əlaqədar olaraq rayonlardan tələbələrin paytaxta gəlməsi, maşınların çoxalmasıdır. Xatırladaq ki, bu ilin 8 ayı ərzində respublika üzrə baş vermiş yol-nəqliyyat hadisələrində 52 azyaşlı uşaq və yeniyetmə həlak olub, 152 nəfər isə xəsarət alıb. Bu fakt çox ciddi narahatlıq doğurur. Ona görə də yeni dərs ilinin başlanması ilə əlaqədar təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə Bakı şəhəri ərazisində yerləşən bütün təhsil müəssisələri polisin tam nəzarətinə götürüləcək.

**Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Namiq Həsənov artıq bir neçə gündür ki, gücləndirilmiş iş rejimində çalışdıqlarını dedi:** "Bir neçə gündür ki, qurumlarımız, strukturlarımız gücləndirilmiş iş rejimində çalışır. Hətta bu, dəmiryolunda, beynəlxalq avtovağzalda tətbiq olunur. Dövlət Yol Polisi işçiləri artıq bütün təhlükəsizlik tədbirlərini demək olar ki, görüb. Rayondan gələn maşınlar üçün xüsusi duracaq yeri olacaq və rayon maşınlarının səhər saat 7-dən gecə saat 12-yə qədər girişinə məhdudiyyət qoyulacaq. Bununla daha çox Dövlət Yol Polisi məşğuldur. Şəhərdə nəqliyyat daşımada da Dövlət Avtomobil Nəqliyyatı Xidməti, Bakı Sərnişin və Yük Daşımalarının Təşkili MMC-yə xüsusi göstərişlər verilib. Biz qeyri-qanuni taksilərlə bağlı mübarizəni gücləndiririk və artıq bir neçə gündür ki, bu proses davam edir. 15 sentyabr günü bu məsələdə xüsusi diqqəti olacağıq ki, bu taksilər avtobus dayanacaqlarını qeyri-qanuni olaraq zəbt etməsinlər. Həm də ki, sırada saxlayıb sərnişin götürə bilməsinlər. Ümumiyyətlə, qeyri- qanuni fəaliyyət göstərən taksilər yığışdırılacaq. Söhbət ondan gedir ki, onların fəaliyyətinə icazə verilməsin. Bütün şəxsi heyət təlimatlandırılıb, müfəttişlər yollarda nəzarət aparırlar. Qeyri qanuni yük daşıyan maşınlar haqqda da tədbirlər görüləcək. Bütün hallarda bütün qurumlarımız gücləndirilmiş iş rejimində çalışacaq".

❑ **Günel MANAFLI**
**Foto müəllifindir**

Yeni MÜSAVAT

Son səhifə

N 204 (6232) 15 sentyabr 2015



# Sevgilinizlə danışmağın qızıl qaydaları

Kişilərlə qadınların telefon və kompyuter kimi ünsiyyət vasitələrindən istifadə zamanı fərqlilikləri üzə çıxır. Qadınlar daha çox duyğu və düşüncələrini paylaşırlar.

**Boş danışmayın** - kişilərin çoxu telefonda uzun-uzun danışmağı xoşlamaz. Hələ siz "Bu gün nə etdin?" sualını gündəlik proqramınızı dəqiqə-dəqiqə izah edərək cavablayırsınızsa, diqqəti bir müddət sonra dağılacaq.

**Birinci siz zəng etməyin** - ən əhəmiyyətli qaydalardan biri budur; heç bir zaman ilk axtaran siz olmayın. İlk görüşdən sonra mütləq onun axtarışını gözləməlisiniz.

**Zəng etdiyi zaman necə danışmalı?** - Sizi axtardığı zaman sevindiyinizi çox bildirməyin və ən əhəmiyyətlisi telefonu ilk çalanda açmayın.

**Cavabsız iki zənginiz var** - əgər telefonunuza cavab vermədisə dərhal panikaya qapılmayın, həqiqətən məşğul ola bilər və telefonuna cavab verə bilməyəcəyi bir yerdə də ola bilər. Bu vəziyyətdə mesaj göndərin.

**Səssizliyi pozun** - mütəxəssislər sual verməyinizi təklif edir. Onunla əlaqədar suallar, amma bunlar "Harada idin?" kimi istintaq şəklində deyil, sevdiyi və ya sevmədiyi şeylər kimi ümumi mövzular haqqında olsun.

**Zarafat edin** - əgər çox görüşə bilmirsinizsə, telefonda danışmaq bacarıqlarınızı inkişaf etdirməlisiniz. Münasibət yenidirsə - əgər onunla yeni tanış olmusunuzsa, yeni özü tez axtarmırsa - əgər işi bitən kimi axtarmırsa, deməli sizə zənn etdiyiniz qədər dəyər vermir. Nə qədər məşğul olsa da, qısa bir mesaj göndərə bilərdi.

# Mədəsindən 6 karatlıq almaz çıxdı

Tailandda 56-cı dəfə təşkil edilən Banqkok Qızıl Festivalında iki Çin vətəndaşı 6 karatlıq almaz oğurlayıb. Aparılan araşdırmalar nəticəsində almazın çinli bir qadının bədənində olduğu məlum olub.

Məlumatlara görə, çinli cütlük qızıllara və daş-qaşlara baxdıqdan sonra mağazadan ayrılıblar. 6 karatlıq almazın oğurlandığını anlayan mağaza sahibi video-görüntüləri izlədiyi zaman çinli qadın və kişinin almazı saxtası ilə dəyişdirərək mağazadan çıxdığını görüb. Dəyəri 277 min dollar olan 6 karatlıq almaz oğrularını Tailand polisi hava limanında saxlayıb. Çantaları və bütün əşyaları axtarılan şübhəlilərin üzərində almaz tapılmayıb. Çinli qadın x-ray cihazından keçirildiyi zaman almazın mədəsində olduğu məlum olub. Almazı udan qadın əməliyyata götürülüb və 12 dəqiqəlik əməliyyat nəticəsində mədəsindəki almaz çıxarılıb.



# 11 yaşlı qızını məhkəməyə verdi

İrlandiyada bir ata 11 yaşı olan qızının facebook sosial şəbəkəsindəki hesabını bağlatdıra bilmədiyi üçün məhkəməyə verib. Məlumatlara görə, azyaşlı qız özü üçün bir neçə facebook hesabı açıb və həmin hesablar vasitəsi ilə internetdə tanış olduğu oğlanlarla yazışır. Mesajların mətni isə qızın yaşına uyğun deyil. Qızının yoldan çıxmasından və əxlaqsız insanların əlinə düşməsindən qorxan ata qızına facebook şəbəkəsində hesab açılmaması üçün məhkəməyə müraciət edib. Məhkəmə zamanı facebook sosial şəbəkəsinin rəhbərliyi qızın açdığı hesabları bağladıqlarını, lakin onun bəzi hesablarını əngəlləyə bilmədiklərini açıqlayıb. Kimliyi bəlli olmayan ata facebook ilə razılaşdığı, lakin qızının əməllərini qarşısını necə alacağını bilmədiyini açıqlayıb. Mütəxəssislər isə sosial şəbəkədə yeni hesab açılması üçün yaş həddi qoyulmasının tərəfdarı olduqlarını deyirlər.





# ABŞ-ı şok edən cinayət

Amerikada 2012-ci ildə baş vermiş bir cinayət hadisəsinin üstü açılıb. Yeni məzun olmuş Shayan Hubers adlı qadının vəkil Ryan Posten ilə münasibəti var imiş. Lakin R.Postenin gənc qadından ayrılmaq istəyi ona baha başa gəlib. Öncə silahdan istifadə etməyi və nişan almağı öyrənən qadın sevgilisini öldürməyə qərar verib. Huber bir gecə keçmiş sevgilisini Miss Ohayo ştatındakı barların birində gözəllik yarışmalarından birinin qalibi ilə görüb. Əsəbiləşən qadın keçmiş sevgilisini 6 güllə ilə qətlə yetirib. 40 il həbs cəzası alan qadını "son illərin ən soyuq qanlı qatili" adlandırıblar.





**QOÇ** - Ümumi məziyyətlərinə görə uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yeni xəbər eşidəcəyiniz də mümkündür.

**BUĞA** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhət görülür. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nəzərə alın ki, bu, sizə hədsiz savab qazandıra bilər.

**ƏKİZLƏR** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**XƏRÇƏNG** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**ŞİR** - Saat 12-yə qədər hansısa ciddi işlərə girişməyin. Əks təqdirdə, xoşagəlməz situasiyalarla rastlaşacaqsınız. Nahardan sonra nüfuzlu şəxslərlə görüşləriniz sizə səmərə verəcək.

**QIZ** - Qəlbinizin məhəbbət guşəsinə baş vurmağınızı təvəqqe edən ulduzlar əsas gücünüzü sevgiyə yönəltməyi məsləhət görür. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.

**TƏRƏZİ** - Maliyyə baxımından düşərli gün olsa da, ümumi ovqatınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Büdcənizdə isə artım gözlənilir.

**OXATAN** - Ulduzların düzümü əsasən səhhətinizə fikir verməyi məsləhət görür. Bunun üçün ilk növbədə əsəblərinizi qorumalı, hər dedi-qoduya fikir verməməlisiniz. Əsas vaxtınızı evdə keçirin.

**OĞLAQ** - İş yerində həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Odur ki, özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 16-dan sonra şəxsi işlərinizdə dönüş yarana bilər.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**BALIQLAR** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki yaxın günlərdə bu istiqamətdə uğurlarınız artacaq. Konkret olaraq bu günsə yalnız görəcəyiniz işləri müəyyənləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 800 min dollarlıq skelet



155 milyon il öncə yaşamış olan Allosaurus cinsindən olan gənc bir dinozavrın 2,7 metr yüksəkliyindəki skeleti İngiltərədə satışa çıxarılacaq. Jura dövründə yaşamış dinozavrın qalıqlarının 800 min dollara satılacağı gözlənilir. 8,5 metr hündürlüyü və kəskin dişləri olan dinozavrın yaxşı ovçu olduğu ehtimal edilir. 25 noyabrda Essex bölgəsindəki "Summers Palace" hərrac evində satılacaq olan skeletə maraq böyükdür. Hərrac evinin nümayəndəsi skeletin hansısa bir muzey və ya zəngin bir şəxs tərəfindən alınacağına ümid edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300